

## Fransa portalı Azərbaycanın hərtərəfli inkişafından yazır

2

# Türkiyə Qarabağın bərpasında Azərbaycanla bir yerdədir



3

Səs
№ 086 (6527) 18 may 2022-ci il. Qiymәti 60 qəpik

# Formula-1 yarışlarının keçirildiyi ölkələr bundan nə qazanır?



8



## "Siyasi dialoq prosesinin davamlı olması dövlətçiliyimizin möhkəmlənməsi baxımından çox önəmlidir"

2




## Ermənilərin şeytan məsələsi, yaxud ermənilər sülhdən niyə imtina edir?

5



## Finlandiya və İsveç NATO-ya daxil olmaq üçün Türkiyədən asılıdırlar

11

## Rusiyadan taxılın idxal olunmaması Azərbaycana necə təsir edəcək?



9

## "Euronews" "Xarıbülbül" Beynəlxalq Folklor Festivalına reportaj həsr edib




## Ermənistan "qaynaşır": Moskva İrəvanı müharibəyə təhrik edir!



# “İdxaldan asılılığın azaldılması istiqamətində mühüm işlər həyata keçirilir”

## Prezident İlham Əliyev İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı nazirini qəbul edib



***Prezident İlham Əliyev dünən İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib. Görüşdə Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrə toxunulub, kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərindən danışılıb. İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.***

Dövlətimizin başçısı müasir dövrdə ərzaq təhlükəsizliyinin bütün ölkələr, o cümlədən Azərbaycan üçün də prioritet məsələ olduğunu qeyd edərək, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışıb. Prezident İlham Əliyev yerli kənd təsərrüfatı istehsalının və ixracatın əhəmiyyətli dərəcədə artdığını vurğulayaraq, eyni zamanda, idxaldan asılılığın maksimum dərəcədə azaldılması istiqamətində də işlərin həyata keçirildiyini deyib.

Erməni işğalından azad edilmiş ərazilərdə görülən işlərdən danışan dövlətimizin başçısı bu torpaqlarda dərhal kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə başlanıldığını və artıq müəyyən nəticələrin əldə edildiyini bildirib. İşğal dövründə ermənilərin ərazilərimizdə ekoloji soyqırımı törətdiyini vurğulayan Prezident İlham Əliyev xüsusilə bunun nəticəsində bu yerlərin su mənbələrindən də məhrum olunduğunu, buna görə hazırda həmin ərazilərdə su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını qeyd edib.

Oded Forer kənd təsərrüfatı sahəsində ölkələrimizin müvafiq qurumları arasında yaxşı əməkdaşlığın mövcud olduğunu deyərək, Bakıda keçiriləcək ”Caspian Agro 2022” - Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyətini qeyd edib və eyni zamanda, Azərbaycan-İsrail kənd təsərrüfatı biznes forumunda iştirak etmək üçün onunla birlikdə İsraildən xeyli sayda şirkətin nümayəndələrinin də gəldiyini məmnunluqla diqqətə çatdırıb. İsrailin kənd təsərrüfatı sahəsində yaxşı təcrübəsinin olduğunu qeyd edən nazir bu təcrübəni azərbaycanlı həmkarları ilə bölüşməsindən məmnunluğunu ifadə edib.

Oded Forer bildirdi ki, Azərbaycanda əldə edilən inkişafın böyük imkanlar yaratdığı nəzərə alınaraq Qarabağ regionunda da əməkdaşlıq üçün yaxşı potensial var.



## Azərbaycan və Qazaxıstan prezidentləri arasında telefon danışığı olub

**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib. Dövlətimizin başçısı Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və fəaliyyətində uğurlar arzulayıb. Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.**

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə ediblər. Söhbət zamanı əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

# “Siyasi dialoq prosesinin davamlı olması dövlətçiliyimizin möhkəmlənməsi baxımından çox önəmlidir”

**Dünən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkəmizdə aparılan iqtidar-müxalifət siyasi dialoqu çərçivəsində Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov ilə görüşüb.**



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə son illər ölkədə aparılan məqsədyönlü islahatlar, bu islahatların ölkəmizin güclənməsinə, insanlarımızın rifah halının yaxşılaşmasına müsbət təsirləri, genişmiqyaslı islahatların məntiqi davamının yeni siyasi konfiqurasiyanın formalaşmasında özünü göstərməsi və nəticədə iqtidar-müxalifət siyasi dialoqunun dərinləşməsi prosesinin davam etdirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan və ölkəmizdə fəaliyyət göstərən bütün əksər siyasi güclərin cəlb olunduğu siyasi dialoq prosesinin əhəmiyyəti haqqında danışan şöbə müdiri Ədalət Vəliyev qeyd edib ki, bu proses ali siyasi iradənin ifadəsidir və bu prosesin davamlı olması dövlətçiliyimizin möhkəmlənməsi baxımından çox önəmlidir.

Şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra işğaldan azad edilmiş torpaqların yenidən qurulması, postpandemiya dövründə ölkəmizin iqtisadi gücünün artırılması, əhalinin sosial təminatının yaxşılaşdırılması və dövlət idarəetməsinin təkmilləşdirilməsi istiqamətində atılan addımların müsbət nəticələri, ölkəmizdə korrupsiyaya qarşı sərt mübarizə tədbirləri barədə danışıb və bu çoxşaxəli proseslərdə siyasi dialoq çərçivəsində müxalifət partiyalarının iştirak etmək istəkləri yüksək dəyərləndirib.

Görüş zamanı Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov Vətən müharibəsi Zəfəri və ölkəmizin ərazi bütövlüyünün təmin olunması ilə nəticələnən uğurlu xarici siyasətin Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun möhkəmlənməsinə böyük töhfə verdiyini, haqlı mübarizədə dünya dövlətlərinin ölkəmizi dəstəklədiyini vurğulayıb və bunun Ermənistanın bütün cəbhələrdə məğlubiyyətinin əsas səbəbi olduğunu bildirib. Ölkədə aparılan siyasi dialoq prosesinin müxtəlif formatlarda inkişaf etdirilməsi və dərinləşdirilməsində maraqlı olduğunu, həmçinin siyasi dialoqun dövlətçilik, milli birlik üçün böyük əhəmiyyət daşıdığını qeyd edən Abutalıb Səmədov bu istiqamətdə rəhbərlik etdiyi partiyanın ümumi işə daim dəstək vermək istiqamətində fəaliyyət göstərdiyini qeyd edib.

Tərəflər siyasi dialoq prosesi çərçivəsində gündən-günə inkişaf edən və davamlı şəkil alan əməkdaşlığın qısa zamanda müsbət nəticələr verdiyini, bunun gələcəkdə ölkəmizə qarşı baş verə biləcək xarici təhdidlərin aradan qaldırılması üçün xalqımızın birliyini simvolizə edəcəyinə əminlik ifadə edib. Sonda Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov ölkədə aparılan siyasi dialoq prosesinin inkişafına xidmət edən görüşə dəvət edildiyi üçün öz təşəkkürünü bildirib.

## Fransa portalı Azərbaycanın hərtərəfli inkişafından yazır

**Multikultural, tolerant, polietnik və çoxkonfessiyalı, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycan, konstitusiyasına əsasən dünyəvi ölkədir və bütün milli azlıqların mənəvi rifahını bərabər şəkildə təmin edir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın ”Musulmansenfrance” portalında Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) islamşünas alimi, Paris Tədqiqatlar Ali Məktəbinin doktoru, bir çox beynəlxalq tədqiqat qruplarının üzvü Karim İfrakın ”Azərbaycan: Siyasi sabitlik iqtisadi tərəqqinin təməli olanda” adlı məqaləsində yer alıb.




Məqalədə qeyd edilib ki, Sovet İttifaqının süqutundan sonra müstəqilliyini bərpa edən Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə üzləşib. Bununla bağlı olaraq 1993-cü ildə BMT Təhlükəsizlik Şurası bütün işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bildirilib ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad edib.

Məqalədə Azərbaycanın hərtərəfli inkişafında Prezident İlham Əliyevin töhfələri vurğulanıb. Ölkənin iqtisadi inkişafından, beynəlxalq arenada layiqli yerini tutmasından bəhs olunub.

Qeyd edilib ki, Sovet İttifaqı dağıldıqdan sonra iqtisadi göstəricilərinə görə Azərbaycan bir çox müşahidəçilər tərəfindən ”Qafqazın pələngi” (Tigre du Caucase) adlandırılıb. Azərbaycanın Avropa və Asiya qitələrini birləşdirən yol infrastrukturundan və ölkəmizin iqtisadiyyatının uğurla şaxələndirilməsindən yazılıb. Bugünkü Azərbaycanın digər ölkələrə sərmayə yatırmasından bəhs olunub. Beynəlxalq şirkətlərin, o cümlədən 177 alman şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Xarici investisiyaların cəlb edilməsi üçün ölkədə münbit şərait yaradıldığı qeyd edilib.

# Türkiyə Qarabağın bərpasında Azərbaycanla bir yerdədir

Azərbaycan və Türkiyə dost, qardaş və rəsmi müttəfiq. Bu vaxta qədər çox böyük sınaqlardan keçən bu iki ölkə dünya miqyasında bir-birinə ən yaxın müttəfiqə çevrilib. Bu gün tarixi köklərə bağlanan qardaşlıq birliyi bundan sonra daha da möhkəmlənəcək. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. 44 günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rizə-Artvin Hava Limanının açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bir daha bu birliyin əbədi və sarsılmaz olduğunu bildirib: "Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün bu gözəl mərasimdə Azərbaycan Prezidentinin iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür". Dövlət başçımız hər zaman xoş və çətin günlərdə bir yerdə olduğunu söyləyib və bildirib ki, İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərib: "İlk saatlardan savaşın son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi. İkinci Qarabağ savaşı bizim müştərək, şanlı tariximizdir, 30 illik işğala son qoyduq. Savaşın ilk günündə hörmətli Prezident, qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalqız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxu üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər, Şuşa şəhərində Azərbaycanın bayrağı ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi. Azərbaycan xalqı bu qardaşlığı heç vaxt unutmayacaq".



## Prezident İlham Əliyev: "Minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür, öz sözünü deyir"

### "BU GÜN DƏ BİZ BİR YERDƏYİK, QARABAĞIN İNŞASINDA BƏRABƏR, ÇİYİN-ÇİYİNƏ ÇALIŞIRIQ"

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə səfəri zamanı bildirib ki, bu gün Qarabağın bərpasında da qardaş Türkiyə Azərbaycanla bir yerdədir. Bir çox Türkiyə şirkətləri, o cümlədən Rize-Artvin hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Dövlət başçımızın da söylədiyi kimi: "Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik. Bu gün iki qardaş ölkənin münasibətlərinin ən yüksək səviyyəyə çatmasında dövlət başçıları arasında mövcud olan dostluq əlaqələrinin rolu böyükdür. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasında möhkəm dostluq təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, bütün türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir".

### QARABAĞIN BƏRPASI SÜRƏTLƏNDİRİLİR - TÜRK ŞİRKƏTLƏRİ ÖN PLANDADIR

Həmişəki kimi, bu gün də Qarabağın bərpası işində türk qardaşlarımız bizimlə bərabər çalışır. Türkiyə şirkətləri, o cümlədən Rize-Artvin Hava Limanı ərsəyə gətirən şirkət də Qarabağın bərpasında yaxından iştirak edir: "Minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür, öz sözünü deyir". "Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi" Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirib. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma layihələrinin icrasına başlayan şirkətlər arasında Türkiyə şirkətləri ön sıradadır. Artıq türk şirkətləri Azərbaycan üçün önəmli infrastruktur layihələrini icra etməyə başlayıblar. Xüsusilə, Füzuli-Şuşa avtomobil yolunun tikintisində onlar Azərbaycan şirkətləri ilə birlikdə fəaliyyət göstərirlər. "Zəfər yolu" adlandırılan 101 kilometrlik yolun çəkilişində Türkiyənin 2 şirkəti - "Kolin İnşaat Sanayi Turizm və Ticarət A.Ş" və "Özgün Yapı Sanayi ve Ticarət AŞ" şirkətləri iştirak edir. Ötən il noyabrın 16-da təməli qoyulmuş "Zəfər yolu" başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Bu yol Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2 hərəkət zolaqlı və ikinci texniki dərəcəyə uyğun inşa edilir. Hazırda sözügedən avtomobil yolu boyunca suların ötürülməsini təmin etmək məqsədilə dairəvi boru və düzbucaqlı su keçidləri, həmçinin zəruri olan yerlərdə 3 yeni avtomobil körpüsü inşa edilir. Körpülərin uzunluqları 33, 99 və 75 metr olmaqla, yolun 0.6-cı, 26-cı və 57-ci kilometrlik hissələrində layihələndirilib. "Zəfər yolu" Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə Füzuli və Şuşa şəhərləri də daxil, 20-dən artıq yaşayış məntəqəsini əhatə edir. İş həcminin böyüklüyü və layihənin qısa müddətdə yekunlaşdırılmalı olduğu nəzərə alınaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı", "7 nömrəli Magistral Yolların İstismarı" və "Azvirt" MMC-lər də tikintiyə cəlb olunub.

Göründüyü kimi, regionun liderləri və əsas söz sahibləri olan Prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasındakı görüş və müzakirələr iki dövlət üçün gələcəkdə atılacaq addımlar baxımından müstəsna əhəmiyyət daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev Rize-Artvin Hava Limanının açılış mərasimindəki çıxışlar qardaş ölkənin gündən-günə güclənməsində Prezident Rəcəb Tayyib Ərdoğanın yüksək xidmətlərinin olduğunu bildirib: "Biz bu gün arzuladığımız qüdrətli bir Türkiyə görürük. Məhz bu gün həyatın bütün sahələrində inkişaf dövrünü yaşayan türk dövləti dünya miqyasında böyük güc mərkəzinə çevrilərək söz sahibi olub. Birliyimizin sarsılmaz olduğu vurğulayan dövlətimizin başçısı bildirdi ki, xalqımız İkinci Qarabağ müharibəsinin ilk günündən Türkiyənin və Prezident Rəcəb Tayyib Ərdoğanın mənəvi, siyasi dəstəyini gördü. Azərbaycan heç vaxt bu qardaşlığı, bu dəstəyi unutmayacaq. Bu həm də o demək idi ki, biz tək deyilik, xalqımıza bu mənəvi dəstək böyük ruh verirdi".

### "ZAMANLA BÜTÜN QARABAĞ ABADLAŞACAQ, BUNA İSƏ HEÇ KƏS MANEƏ OLA BİLMƏZ"

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mütəmadi olaraq işğaldan azad olunmuş torpaqlara səfər etməklə bu ərazilərin Azərbaycana aid olduğuna, xalqımızın bu torpaqlara artıq əbədi döndüklərinə və verilən vədlərin gerçəkliyə çevrildiyinə bütün dünyaya açıq şəkildə mesajıdır. Həmçinin, bu səfərlər bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz. Və.....

### "BİZ AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARI BƏRPA EDƏCƏYİK, BƏRPA EDİRİK"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günü Füzuli və Şuşa şəhərlərinə səfər etməsi və Şuşadan etdiyi müraciəti bir daha Qalib Liderimizin sözü ilə əməlinin üst-üstə düşdüyünün reallığıdır. Dövlətimizin başçısının da söylədiyi kimi, Heydər Əliyevin ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. "Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik", - deyə Prezident səfəri çərçivəsində görülən işlərlə tanış olaraq, iş icraçılarına vacib tövsiyələr verdi: "Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur". Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2021-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlara Qalib Liderinin Qələbə yürüşü hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Dövlət başçımızın dediyi kimi: "Bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ KAMALQIZI**



# Azərbaycan-Türkiyə qardaşlığı dünya mətbuatında!










Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan dövlətlərarası münasibətlərdə Azərbaycan-Türkiyə əlaqələrinin xüsusi yeri və çəkisi var və bu, danılmazdır. Hər iki dövlətin rəhbəri tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Son dövrdə dövlətlərarası münasibətlərin daha da dərinləşməsinə, eləcə də strateji əlaqələrin möhkəmlənməsinə töhfələr verən tədbirlər həyata keçirilir. Azərbaycan və Türkiyə dost, qardaş və müttəfiq ölkələrdir. Vurğulamaq yerinə düşər ki, iki qardaş ölkənin keçirdiyi görüşlər, səfərlər Azərbaycan və Türkiyə arasında mövcud olan münasibətlərə və əməkdaşlıq xalqlarımızın qardaşlıq əlaqələrinə, qarşılıqlı hörmət və etimadına söykənir. Tarixi köklərə malik olan Azərbaycan-Türkiyə münasibətləri hazırda yeni mərhələdədir. Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə işgüzar səfəri və səfər çərçivəsində dövlət başçılarının Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etmələri Türkiyə və Azərbaycan qədər dünyada biri-birinə bağlı olan dövlətlər olmadığının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində çıxışı zamanı iki qardaş ölkənin müttəfiqlik münasibətləri barədə söylədiyi fikirləri dünya mətbuatında yer alıb.





Bu səfər həmişə olduğu kimi dünyanın bir çox ölkələrinin mətbu orqanlarının diqqətindən kənarda qalmayıb. Misirin "Asiaelyom" agentliyi səfərlə bağlı əsas məqamları diqqətə çəkib və Cənab Prezidentin söylədiyi fikirlərə xüsusi yer verilib. Rizeyə ilk dəfə səfər etdiyini deyən Azərbaycan Prezidenti qeyd edib: "Rizenin, Artvinin, Qara dəniz bölgəsinin gözəl, füsunkar təbiəti böyük sərvətdir, amma ən böyük sərvət bu bölgənin insanlarıdır - mərd, vətənpərvər, döyüşkən, Türkiyə Cümhuriyyətinin keşiyində duran insanlardır".

Məqalədə göstərilir ki, Cənab Prezident "Biz dünya miqyasında bir-birinə ən yaxın ölkələrik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir", - deyə bildirib: "Keçən il bizim qədim və tarixi şəhərimizdə - Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik". Yaponiyanın "ajmedia.jp" portalı da bu səfərdən yazaraq, yapon və ingilis dillərində yayılan məlumatda Türkiyədə nəqliyyat və infrastruktur sahəsində həyat keçirilən genişmiqyaslı işlər barədə məlumat verib. İki qardaş ölkə arasında energetika, nəqliyyat, enerji təhlükəsizliyi ilə bağlı əməkdaşlıq məsələlərinin müzakirə olunduğu oxucuların diqqətinə çatdırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə səfəri, Rize-Artvin Hava Limanının açılışında iştirakı, eləcə də keçirdiyi ikitərəfli görüşlərdə söylədiyi fikirlər Gürcüstan mətbuatının da diqqət mərkəzində olub. gaxa.ge, 24news.ge, interpress.ge və aktual.ge informasiya portalları Azərbaycan Prezidentinin səfəri ilə bağlı silsilə materiallar dərc ediblər. Azərbaycan, rus, ingilis və gürcü dillərində dərc olunan materiallarda Türkiyədə digər sahələrdə olduğu kimi, nəqliyyat və infrastruktur sahəsində də genişmiqyaslı işlərin həyata keçirilməsi, energetika, nəqliyyat, enerji təhlükəsizliyi ilə bağlı əməkdaşlıq məsələləri, həmçinin bölgədəki vəziyyət ilə bağlı fikirlər əksini tapıb.










Materiallarda postmünaqişə dövrü, Azərbaycan ilə Ermənistan və Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması ilə bağlı fikirlər də oxucuların diqqətinə çatdırılıb. Qırğızıstandakı "turktoday.info" portalı da Azərbaycanla Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Portal Azərbaycan Prezidenti İlham Əliyevin mərasimdəki çıxışını da tam olaraq verib. Sayt yazır ki, təməli 2017-ci il aprelin 3-də Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan Rize-Artvin Hava Limanı Türkiyədə Ordu-Giresun aeroportundan sonra dənizin doldurularaq inşa edildiyi ikinci, dünyada isə beşinci hava limanıdır. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər Azərbaycan ilə Türkiyənin qardaşlığının və dostluğunun bariz nümunəsidir.

**_Zümrüd BAYRAMOVA_**

# Ermənilərin şeytan məsələsi, yaxud ermənilər sülhdən niyə imtina edir?

**Ermənilərin ağlı çaşıb. Bunu təkçə İrəvanda keçiləri və Paşinyanı devirmək üçün etiraz aksiyalarına qatılan revanşist, daha dəqiq desək ağıldan kəm, ”hirsi çox, qüvvəsi olmayan” ermənilərin tərz-hərəkətlərində görmək olmur, bunu Ermənistanın din xadimi, özünü ağıllı sayan tanınmış bir ermənin ağzından eşitmək fürsəti də əlimizə düşdü. Bəs nə deyir bu ”hay”? Deyir ki, ”44 günlük müharibədə ”Arçax ordusunu məğlub edən Azərbaycana Türkiyə, Pakistan, Belarus, İsrail, Çin və Yaponiya hərtərəfli dəstək verirdi, onların köməyi olmasaydı erməniləri məğlub etmək mümkün deyildi. Təkcə Çin Azərbaycana 14 milyard dollarlıq yardım etmişdi. Buna da səbəb Rusiyanı oyundankənar vəziyyətə salmaq idi(?!)”. Və ən əsası bu ikiayaqlı subyekt iddia edir ki, erməniləri bu müharibədə Azərbaycan yox, şeytan məğlub edib.**

El arasında bir məsəl var, deyir hamı dəli olanda mollanın üstünə qaçır, bəs molla dəli olanda nə etsin”. Ermənistan televiziyasına açıqlama verən erməni də keşişdir. Görəsən, dəli olan, ağlı çaşan, içinə cin girən ermənilər bu keşişin yanına gedirsə, bu keşişin dəlilik əlaməti üzə çıxanda o hara üz tutsun. Həqiqətən düşündürücü məsələdir. Qarabağın arxiyepiskopu Paqrav Martirosyan adlı keşişdən danışırıq. Bu erməni ”pop”u o qədər özündən müştəbeh, razı danışır, o qədər tarixi qələtlər edir ki, adamın təəssüf etməkdən başqa əlacı qalmır. Təəssüfümüz də budur ki, gör, Tanrı bizi kiminlə qonşu edib, yaxud erməniləri Qafqaza sürüyüb leş kimi gətirən qüvvələr bununla başımıza nə müsibətlər gətiriblər? Ermənilərin qanmazını demirik, ”ağıllıları”nı dinlədikcə, onların milli kimlik barədə fikirlərinə qulaq asdıqca bu ikiayaqlıları bizə qonşu edənlərin yeddiarxa dönənlərinə lənət oxumaqdan özümüzü saxlaya bilmirik.

Ola bilsin ki, ermənilər Hindistan, Efiopiya səhralarında, Yunanıstanın ilan mələyən adalarında min il, lap dinozavrlardan da qabaq yaşayıblar. Nə deyirik, Allah yer üzünə təkcə Adəm övladlarını göndərməyib, həm də insan cildində şeytanı da göndərib, ermənilərin timsalında. Amma dəqiq bilirik ki, onları Qafqaza göndərməyib. Antropoloji quruluşuna görə ermənilərin qafqazlı olmadıqları bütün mənbələrdə sübuta yetirildiyi barədə məlumatlar var. Onların bir qismi, adı erməni olan lakin özü erməni kökənli olmayan, qafqazlılara bənzəyənləri erməni deyillər, bu dəqiqdir. Onlar müsəlmanlığı qəbul etməyən albanların bir hissəsidir, sonradan erməniləşdirilmələri bir ehtimal deyil. Digərləri isə özlərini erməni hesab edirlər, görünüşcə Hindistanda yaşayan qaraçılara bənzəyirlər. Yəni, Ermənistanda, o cümlədən Qafqazda yaşayan ermənilər aborigen xalq hesab edilmirlər.

## Ermənilər niyə sülh istəmir?

Qayıdaq Paqrav Martirosyan adlı keşişin fikirlərinə. Özünü Qarabağın arxiyepiskopu hesab edən (dərə xəlvət, tülkü bəy, dini mərkəzlərin gözündən, qulağından uzaq Qarabağda özünü lap Roma Papası da adlandırmaq olar - müəllif) bu erməni əvvəlcə Cənubi Qafqazın, eyni zamanda Qarabağın tarixindən danışır, yalanlarını sıralayır, az qala bütün Qafqazın ermənilərə məxsus olduğu barədə başından yekə qələtlər edir və... Və sonda II Qarabağ müharibəsində ermənilərin məğlub olmalarının səbəbini açıqlayır. Daha doğrusu məğlubiyyətə ermənisayağı don geyindirir. Onu da xüsusi olaraq qeyd edək ki, 44 günlük müharibədən ötən il yarım müddət ərzində hələ bir dəfə də olsun ermənilərin müharibənin nəticələri barədə nə rəsmi, nə də qeyri-rəsmi şəkildə doğru-dürüst fikir eşitməmişik. Hamısı məğlubiyyətə bir cür don geyindirir, səbəbi ermənilərdən başqa hər yerdə axtarırlar. Əvvəlcə dedilər ki, Azərbaycan tərəfdən Türkiyə Ordusu döyüşürdü, sonra suriyalı terrorçulardan danışdılar, liviyalı bədəvilərdən, afrikalı zəncilərdən miflər düzəltdilər, bəzən ”Yaşma kömək etməsəydi, biz azərbaycanlıları məğlub edəcəkdik” kimi sərsəm cümləni də alınlarına həkk elədilər. Anlamaq hissini unudan ermənilər qanmadılar ki, Yaşma elə Azərbaycanın özünün illər uzunu yetişdirdiyi xüsusi təyinatlılarıdır. Bu binəvalar elə təsəvvür edirlər ki, ”Yaşma” ya hansısa dövlət, ya da xarici ölkələrdən birinin ordusudur. ”Türkiyə ordusu ermənilərə qarşı döyüşür”, deyəndə ”Bayrakdar”ları nəzərdə tutanan erməni qanmazlar anlamaq istəmirlər ki, bu hava şahinləri vasitəsilə başlarına od ələyənlər Azərbaycan Silahlı Qüvvələrinin mütəxəssisləridir. Bəs erməniləri bu yalanları uydurmağa nə vadar edir? Əlbəttə bu iddialar səbəbsiz deyil, ermənilər məğlubiyyətlərini qəbul etmək istəmirlər və bu sayaq bəhanələr uydururlar. Paqrav Martirosyan da erməni televiziyasına açıqlamasında soydaşlarının cəfəng fikirlərinin bir az da qüvvətləndirib. 1921-ci il hadisələrindən danışan keşiş bildirib ki, ”Stalinin əmri ilə Ermənistanın bütün torpaqları Azərbaycan və Türkiyə arasında bölüşdürülüb. Naxçıvan və ”Artsax” Azərbaycanın tərkibinə verilib. 1948, 1957, və 1967-ci illərdə SSRİ hökumətinə edilən müraciətlər eşidilməyib. Kosigin ”hə” desə də, Suslovun göstərişi ilə Qarabağın Ermənistana verilməsi məsələsi gündəmdən çıxarılıb, bir sözlə rədd edilib. 1987-ci ilə qədər ermənilər Qarabağ hərəkatına hazırlaşıblar və müharibə qaçılmaz olub”. Keşiş bütün bunlardan başqa hər kəsi qandırmağa çalışır ki, ermənilər heç vaxt başqasına pislik etməyiblər, bu bizim taleyimizdir. Biz aqressor deyilik, ona görə də Allah bizimlədir”, deyib. Əlavə edib ki, ”Artsaxın (Ermənistanı da yox - müəllif) məğlub olmasına səbəb Azərbaycana Türkiyə, Pakistan, Rusiya, Belarus, İsrail, Çin, Yaponiya dövlətlərinin, suriyalı və liviyalı terroristlərin dəstəyi olub. Erməniləri şeytan məğlub etdi, insan yox”.







## İlanın ağına da, qarasına da...

Keşişdən siyasətçiyə keçək, görək dindar erməni ilə siyasətçi ermənin düşüncəsində bir fərqlilik varmı, yoxsa bütün ermənilər yalançılıq sindromundan əziyyət çəkirlər? Ermənistan ”Respublika” Partiyasının sədr müavini Armen Aşotyan Ermənistan hakimiyyətinin Azərbaycana göndərdiyi 6 təklifi şərh edərkən bildirib ki, bu, tamamilə biabırçılıqdır. Yəni, uzun müddətdir ki, heç kim Azərbaycana və beynəlxalq ictimaiyyətə Ermənistanın siyasi, diplomatik düşüncəsini, potensialını elə salmaq üçün belə əsas verməyib: ”Bu altı təklif deyilənlər sadəcə olaraq heç bir ciddi intellektual siyasi əsəri ehtiva etməyən aşağı dərəcəli essedir və ondan hər hansı faydalı siyasi nəticə gözləmək sadəlövhlük olardı”.

Aşotyan Ermənistan hakimiyyətinin ”Ermənistan MDB-yə daxil olarkən Azərbaycanın ərazi bütövlüyünü tanıyıb” fikrini əsassız adlandırıb. Qeyd edib ki, Ermənistan MDB-yə daxil olarkən yalnız Azərbaycana qarşı ərazi iddialarının olmadığını bəyan edib: ”Ermənistanın Azərbaycana qarşı heç vaxt ərazi iddiası olmayıb, lakin ərazi bütövlüyünün tanınması prinsipi ATƏT-in Minsk Qrupu həmsədrlərinin Artsax nizamlanmasının üç prinsipindən biridir”. Yəni, Ermənistan 1992-ci ildə birtərəfli qaydada, heç bir beynəlxalq sənədlərə istinad etmədən Qarabağı öz ərazisi hesab eib və özündəki sənədlər üzərində kiçik redaktə işləri aparmaqla bu əməliyyata hüquqi don geyindirib.

Üçüncü təklifə gəlincə, Armen Aşotyan qeyd edib ki, burada deyilir ki, erməni tərəfi üçün həllin əsas məsələləri təhlükəsizliyin təmin edilməsi, Qarabağ ermənilərinin hüquq və azadlıqlarına hörmət, eləcə də Qarabağın yekun statusudur. Amma Armenin bu iddiası heç bir qanuna, beynəlxalq qaydalara sığmadığını, yalnız ermənilərin uydurduğu ssenarilərə uyğun gəldiyini deyə bilərik. Bununla da ermənilərin 30 illik işğaldan sonra və 44 günlük müharibədə Azərbaycan ordusundan aldıqları şapalağa rəğmən ağıllanmadıqları göz qabağındadır. Aşotyan Qarabağın Azərbaycanın tərkibində qalmasını Paşinyan hakimiyyətinin xəyanəti hesab edir. Amma reallıq budur ki, Paşinyan istəsə də, istəməsə də, sənədlərə imza atsa da, atmasa da Qarabağ Azərbaycandır.

Qeyd edək ki, Ermənistanda baş verən son hadisələr bir daha göstərir ki, revanşistlər, separatçı meylli radikal qüvvələr ölkəni məhvə sürükləyir. Uzun illər Ermənistanı idarə edən işğalçı hərbi xunta başçıları Koçaryan və Sarkisyan rejimi yenidən erməni xalqını qırğına vermək istəyir. Azərbaycan dövləti 44 günlük Vətən Müharibəsi zamanı işğalçı Ermənistana layiqli dərs verib, işğalçı ordu darmadağın edilib. Amma bu gün İrəvan küçələrində kütləvi etirazlar və iğtişaşlar törədən qüvvələr görünür ”Dəmir Yumruğun” sarsıdıcı zərbəsindən yetərincə nəticə çıxara bilməyiblər. Azərbaycan dövləti istənilən ssenariyə hazırdır. Əgər revanşistlər 3-cü müharibənin başlanmasını istəyirlərsə, qüdrətli ordumuz düşməni yenidən darmadağın etməyə qadirdir. Ermənistanı yeni müharibəyə sürükləyən qüvvələr anlamalıdır ki, bu nəinki onların, ümumilikdə ölkələrinin sonu ola bilər. Müharibə başlayarsa Azərbaycan ordusu ildırım sürətli döyüş əməliyyatları tətbiq edəcək. Ermənistan bu acı və faciəvi nəticələrə hazır olsun.

Brüssel sülh gündəliyinə uyğun olaraq danışıqlar həyata keçirilir və Ermənistanla-Azərbaycan arasında sərhədlərin dermitasiyası, bölgədəki nəqliyyat, iqtisadi əlaqələrin bərpası eləcə də sülh müqaviləsinin imzalanması ilə bağlı geniş miqyaslı bir proses keçirilir. Lakin Ermənistan bu prosesə mənfi təsir göstərmək istiqamətində fəaliyyət göstərir. Həmçinin bu hadisələrdə kənar güclərində təsiri istisna deyil. Bu baxımdan Ermənistan həm də hərbi-siyasi təxribatlar yolu ilə regiondakı müsbət proseslərə kölgə salmağa çalışır. Bütün bu proseslər mənfi təsir göstərmək istiqamətində edilən təşəbbüslər bir nəticə verməyəcək. Çünki Azərbaycanın siyasi iradəsi və qətiyyəti sayəsində ortaya qoyulan bütün hədəflərə çatmaq prioritet məsələ təşkil edir.

Bəli bu gün rusiyayönlü müxalifət Ermənistanın paytaxtı, qədim Azərbaycan şəhəri olan İrəvanın küçələrində rəsmi Bakının sülh təklifinə qarşı qeyri-adekvat reaksiyalar sərgiləyir, erməniləri revanşa səsləyir və bunun üçün öncə Paşinyanı devrirməyə çalışır. Çox mümkündür ki, aksiya iştirakçılarının boynuna ip keçirib 10 gündür ki, Ermənistanın iri şəhərlərini küşəbəküçə gəzdirənlər göstərişi Moskvadan alırlar. Çünki, aksiyaların üzdə görünən rəhbərləri Saqatelyan-Vanetsyan olsalar da, əslində bu məxləni salmağa çalışan qüvvələrin arxasındakı əllərdən biri Putinin dosti Koçaryan, digəri isə siyasi düşüncəsinə görə sələfinfən geri qalmayan Serj Sarkisyandır. Hər ikisi ”Qarabağ klanı”nın həmsədrləridir, 30 il bundan əvvəl iki xalq arasında münaqişəni alovlandıran gədələr də bunlardır, Qarabağ kartından istifadə edib şəxsi bizneslərini, var dövlətlərini günbəgün artıran oliqarx-prezidentlər də bunlardır. Onların indiyədək gəliri, çörəyi bu münaqişədən çıxıb. Əgər Qarabağda, daha doğrusu Azərbaycanla Ermənistan arasında sülh yaransa, vəziyyət normallaşsa bu binəvalar acından ölməyəcəkmi? Sizcə, bunlar sülh istəyərlərmi?

***V.VƏLİYEV***

# ”Xarıbülbül” festivalı öz möhtəşəmliyi ilə seçilir!

**1989-cu ildən başlayaraq hər ilin mayında Şuşa şəhərində keçirilən ”Xarıbülbül” Musiqi Festivalı Azərbaycanın mədəni həyatında mühüm hadisələrdən biri olmuşdur. Bu festivalda nəinki keçmiş SSRİ respublikalarından, hətta bir çox xarici ölkələrdən nümayəndələr iştirak etdiyindən festival beynəlxalq status daşıyırdı. Lakin təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa şəhərinin Ermənistan ordusu tərəfindən işğalından sonra bu festivalın keçirilməsi dayandırıldı. Lakin Ali Baş Komandan və rəşadətli ordumuz nəticəsində Şuşa 8 noyabr 2022-ci ildə düşmən tapdağından azad olundu. Cənab Prezidentin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın Mədəniyyət paytaxtı elan edilərkən Vaqif Poeziya günləri və ”Xarıbülbül” festivalının bərpasına da start verildi. Mövzu ilə əlaqədar olaraq SİA ”Xarıbülbül” festivalında iştirak edən şəxslər arasında sorğu keçirib.**





## "Xarıbülbül" festivalının iştirakçıları TƏƏSSÜRATLARINI SİA İLƏ BÖLÜŞDÜ

**Əməkdar mədəniyyət işçisi Rasim Ələsgərov:** ”Təbii ki, Şuşada olmaq böyük bir xoşbətlikdir. Demək olar ki, bura 5-ci gəlişimdir.



Amma hər dəfəsində özümü ilk dəfə gəlirmiş kimi hiss edirəm. ”Xarıbülbül” festivalı keçmiş zamanlardan bəri Şuşada keçirilib. Bu ənənənin hələ də davam etdirilməsi çox möhtəşəm bir addımdır. Bizim milli qəhrəmanımız Cavanşirin də dediyi kimi, ”Mən öləndə məni düşmən sərhədində basdırın. Oğullarda qeyrət varsa qəbrim basılmaz”. Onun sözünə qüvvət olaraq demək istərdim ki, bizim oğullarımız öz qeyrətlərini torpaqlarımızı alan zaman nümayiş etdirdilər. Biz həmin oğullarımız ilə qürur duyuruq. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”.

**”Halay” rəqs qrupunun üzvü Rizvan Dadaşov:** ”Bu gün biz ”Xa-



rıbülbül” festivalında ”Halay” rəqsini etdik. Bizim burada iştirak etməyimiz və sözlərlə ifadə oluna bilməyəcək gözəlliyə sahib olan Şuşamızda olmaq inanılmaz bir hissdir. Mən keçirtdiyim hissləri sizə asanlıqla ifadə edə bilmərəm. Qarabağ Azərbaycanın dilbər guşələrindən biridir. İnşAllah ki, gələn il də gəlib festivalda iştirak edərik”.

**Qobustan Aşıqlar Birliyinin üzvü Qədir Bayramov** : ”Mənim Şuşaya ilk gəlişimdir. Böyük fərəh hissi keçirdirik. Sevincimizin həddihüdudu yoxdur. ”Xarıbülbül” festivalı öz möhtəşəmliyi ilə seçilir. Bu cür festivallar hər il davamlı olaraq keçirilməlidir. Çünki Azərbaycanın həqiqətlərini bir növ bu addımla bütün dünya ölkələrinə çatdırmaq olar. Var



olsun Azərbaycanın Şanlı Ordusu”.

**Aşıqlar Birliyinin üzvü Əfsanə Kərimli:** ”Mən bura ilk dəfə ayaq



basanda çox kövrəldim. Çünki yuxularımız və arzularımız gerçəkləşdi. Bir zamanlar bura ayaq basmaq bizə nağıl kimi gəlsə də, artıq bu gün biz Cıdır düzündə gəzib, festival keçirdirik. Ona görə də bu hisslər əvəzolunmazdır və möhtəşəmdir. Allah şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin. Ali Baş Komandanımıza uzun ömür can salığı diləyirəm ki, bu gözəl günü rəşadətli ordumuzla birlikdə bizə yaşatdı”.

**”Cahan” folklor qrupunun üzvü İsa Əsgərov:** ”Xarıbülbül” festivalında iştirak edib, Şuşaya ayaq basmaq çox mükəmməl hissdir. Mən burada olmaqdan çox xoşbəxtəm. Öz xatirələrimdə mən hər zaman Şuşanı öz mükəmməliyi ilə xatırlayacam. Ölkəmizin mədəniyyətinin tanınması baxımından ”Xarıbülbül” festivalının keçirilməsi çox yaxşı bir addımdır. Bunun nəticəsində Qarabağı daha çox ölkə tanıyır və bir çox insan buranı gəlib görmək şansı qazanır”.



**”Avarlar” rəqs ansamblının üzvü Dilbər Dibirova:** ”Bizim artıq



Şuşaya ikinci gəlişimizdir. Lakin ikinci dəfə gəlməyimizə baxmayaraq hər dəfəsində ayrı bir hisslər keçirdirik. Çünki Şuşa həqiqətəndə möhtəşəm bir yerdir. Burada olmaq və bu cür festivalda iştirak etmək qürurverici bir hissdir. Düşünürəm ki, ”Xarıbülbül” festivalı davamlı olaraq keçirilməlidir. Ona görə ki, bu cür festivallar sayəsində bir çox xaricilər gəlib bura ilə tanış olur. Bununla da həmin turistlər bizim tariximiz və mədəniyyətimizlə yaxından tanış olurlar”.

**”Avarlar” rəqs ansamblının üzvü:** Mənim Şuşaya ilk gəlişimdir.



Hər zaman bura haqqında çox gözəl sözlər eşitmişdim. Amma bu gün gəlib buranı canlı-canlı gördüm. Cıdır düzünü qarış-qarış gəzmək, burada iştirak etmək hər bir insana nəsib olmur. Nə gözəlmiş Şuşamız. Şükürlər olsun bugünkü günə. Qarabağ Azərbaycandır. Allah bütün şəhidlərə rəhmət etsin”.

**”Qorqud” Folklor ansamblı:** ”5-ci beynəlxalq ”Xarıbülbül” festi-



valının keçirilməsi və dünyanın bir çox ölkəsindən folklor qruplarının buraya gəlişi mədəniyyətlər arası bir bağlantının qurulması deməkdir. Mənim fikrimcə, dünya musiqilərlə və mədəniyyətlərlə daha gözəldir. Bu gün burada bütün hamı birləşdi. Bütün dünyaya Azərbaycan bu kimi festivallarla bir mesaj verir ki, mən sülhü sevirəm və mənim olanı layiqincə almışam. Biz mədəniyyəti və insanlığı sevirik. Var olsun sülh və insanlıq! Yaşasın Azərbaycan!”.

**Fotoqraf Rza Diqqəti:** Şuşa deyəndə bütün dünyada azərbaycanlı-



ların ürəyi titrəyir. Çünki Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Bura Bülbülün, Xan Şuşinskinin, Natavanın, Üzeyir Hacıbəylinin məskənidir. Onun üçündə Şuşada ”Xarıbülbül” festivalının keçirilməsi böyük əhəmiyyətə malikdir. Bu festival üçün xaricdən bir çox qrupların gətirilməsidə çox önəmlidir. Bunun üçündə belə festivallar çox keçirilməlidir”.

**”Ankara Türk Dünyası”rəqs qrupunun üzvü Əsəd Karaca:** ”Biz bura gəldiyimiz üçün çox xoşbəxtik. Həmçinin bir türk rəqs qrupu olaraq Cıdır düzündə qurulan səhnədə çıxış etmək insana ayrı bir qürur verir. Qarabağda yaşanan hər bir hadisələri biz izləyirdik. Burada yaşanan bütün pisliklərdən xəbərdarıq. Şükürlər olsun ki, 30 il sonra biz burada bayram edə bilirik. Türkiyə ilə Azərbaycan iki dövlət bir dövlətdir və hər zamanda belə olaraq qalacaq”.

**”Ankara Türk Dünyası” rəqs qrupunun üzvü Göknur Qaraqurd:** İlk dəfədir ki, Şuşaya gəlmişəm. Qarabağ torpaqları sizə əziz



olduğu kimi bizə də əzizdir. 30 ildən sonra bu torpaqlara ayaq basmaq böyük bir xoşbəxtlikdir. Şuşa bizim də vətənimizdir. Bu qədər qısa bir müddətdə işğaldan azad olunan torpaqlarda böyük quruculuq işlərinin görülməsi sadəcə möhtəşəmdir”.

**Dövlət Akademik Rəqs ansamblının üzvü Vasif Nəcəfli:** ”Bu gün əminəm ki, hər birimiz çox möhtə-



şəm hisslər keçirdirik. İkinci dəfədir ki, Şuşada oluram. Bura o qədər möhtəşəmdir ki, insan getmək istəmir. Allah şəhidlərimizə rəhmət eləsin. Biz qəhrəman oğullarımız sayəsində bu gün bu torpaqlara ayaq basırıq. Düşünürəm ki, ölkəmizin dünyada tanıdılması üçün bu cür festivallar çox böyük önəm kəsb edir”.

**Azərbaycan Dövlət Rəqs Ansamblının üzvü Aida Zeynalova:** ”Çox təəssüf hissi keçirdirəm ki, biz uzun illər bu yerlərə gələ bilməmişik. Lakin bu gün bu yerlərdə olmaq və bu möhtəşəm festivalda iştirak et-



mək böyük xoşbəxtlikdir. Qarabağ çox gözəldir. Cıdır düzü, Şuşa hər zaman mənim xatirəmdə unudulmaz olaraq qalacaq. İnşallah gələn il bu festivalda iştirak etmək yenidən bizə nəsib olar. Qarabağ Azərbaycandır”.

**”Ankara Türk Dünyası” rəqs qrupunun üzvü Mustafa Yılmaz:** ”Biz də 30 il müddətində böyük bir həsrətlə bu torpaqları gözləmişik. Uşaqlığımızdan bəri bu torpaqlar barədə çox eşitmişik. Şükürlər olsun ki, uzun bir müddətdən sonra Şuşaya gəlmək bizə nəsib oldu. Qarabağ hər birimizin vətənidir. Allah bütün əsgərlərimizi qorusun, şəhidlərimizə isə rəhmət eləsin”.

***Banuçiçək Hüseynli***

# Elm, təhsil və qlobal düşüncə dövrü

## Dövlət başçısının Sərəncamına əsasən, modul tipli təhsil müəssisələrinin quraşdırılması məqsədilə dövlət büdcəsindən 5,0 (beş) milyon manat ayrılıb



Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilir. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramları, islahatlar və layihələrin həyata keçirilməsi nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

### ELM, TƏHSİL VƏ QLOBAL DÜŞÜNCƏ DÖVRÜ

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsindən söz açarkən əlbəttə ki, bütün bunların Prezident İlham Əliyevin təhsilə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olduğunu xüsusi olaraq qeyd etməliyik. Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Əlbəttə ki, təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. Müasir dövrümüz elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiyası dövrü kimi səciyyələnir. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir. Belə bir mühitdə təhsil alan bugünkü məktəblilər gələcəkdə Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər.

### "QARA QIZIL"IN İNSAN KAPİTALINA ÇEVRİLMƏSİ ÇAĞIRIŞI UĞURLA REALLAŞIR

Azərbaycanda elmin inkişafı, təhsil sahəsinin beynəlxalq standartlar səviyyəsində qurulması dövlət siyasətinin öncül istiqamətlərindən biridir. Cənab İlham Əliyev Prezidentlik fəaliyyətinin ilk illərində "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etməsi əbəs deyildi. Qeyd etdiyimiz zaman məsafəsində təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi məqsədi ilə dövlət proqramları qəbul edilmiş, layihələr həyata keçirilmişdir. Son illərdə reallaşdırılan infrastruktur layihələri çərçivəsində tikilən, əsaslı təmir edilən 3500-dən artıq təhsil müəssisələrində sinif otaqlarının kompüterləşdirilməsi, müasir avadanlıqlarla təchiz olunması məktəblilərin təhsilinə müsbət təsirini göstərir. Ümumiyyətlə, Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün atılan addımlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi çağırışı uğurla reallaşmaqdadır. Cənab Prezidentin vurğuladığı kimi, "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir".

Ümumi təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri sırasında ümumi təhsilin məzmununun fərdin, cəmiyyətin və dövlətin tələblərinə, elmi-texniki tərəqqinin inkişafına çevik uyğunlaşdırılması dayanır. Dövlət hər bir vətəndaşın ümumi təhsil alması üçün müvafiq şərait yaradılmasına təminat verir və ümumi təhsilin hər hansı səviyyəsinə və formasından məhrum edilməsinə yol vermir. Hər bir vətəndaşa ümumi təhsil almaq imkanı yaradılır. Sözsüz ki, yaşadığı məkandan asılı olmayaraq. Hər bir fərdin müasir tələblərə cavab verən təhsil müəssisələrində təhsil almasına şərait yaradılır.

Göründüyü kimi, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialı reallaşdırmağa yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Hazırda təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi davam etməkdədir.

### DAĞ KƏNDLƏRİNDƏ VƏ UCQAR KƏNDLƏRDƏ MODUL TİPLİ MƏKTƏBLƏRİN TİKİNTİSİ DAVAM ETDİRİLİR

Artıq bir neçə ildir ki, respublikamızda modul tipli məktəblərin inşası layihəsi də uğurla icra edilir.Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ucqar kəndlərdə az şagird kontingentli qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilib. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır. Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təkcə 2016-2019-cu illərdə respublikamızın 45 bölgəsində ümumilikdə 293 modul tipli məktəb quraşdırılıb.2020-ci ildə isə 60 modul tipli məktəb istifadəyə verilib.

Modul tipli məktəblərin inşası tez başa gəlir və zəruri hallarda onların genişləndirilməsi də mümkündür. Dağ kəndlərində və ucqar kəndlərdə modul tipli məktəblərin tikintisi layihəsi yaxın zamanda başa çatmalıdır. Bir çox ucqar kəndlərdə bu layihə icra edilir.

Görülən işlərin davamı olaraq, Dövlət başçısının 16 may tarixi "Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında" Sərəncamı imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.3-cü yarımbəndində nəzərdə tutulmuş 5,0 (beş) milyon manat bu Sərəncama əlavəyə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılıb.

Göründüyü kimi, zəngin təbii sərvətləri olan Azərbaycanda, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "Müxalifətin aksiyası xarici qüvvələrin maliyyə dəstəyi ilə keçirilib"

"Fəvvarələr meydanında feminist deyilən xanımlar və onlarla eyni mövqedən çıxış edən, eyni zamanda xaricdən maliyyələşən bir sıra siyasi partiyaların nümayəndələrinin icazəsiz aksiya keçirmələri və bu aksiyalarda iğtişaşlara cəhdlər göstərilməsi xaricdən idarə olunaraq ölkəmizdəki siyasi sabitliyi pozmağına hesablanmışdı. Ona görə də bir sıra xarici informasiya agentlikləri aksiyadan bir neçə gün əvvəl aksiya keçiriləcəyini sosial şəbəkələrdə təbliğ edirdilər". Millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, müxalifətin aksiyası xarici qüvvələrin müəyyən maliyyə dəstəyi ilə keçirilib: "Yəni bu sifarişli aksiya idi və müəyyən cəhdlərə baxmayaraq aksiyanın təşkilatçıları öz niyyətlərinə çatmadılar. Aksiyaya qoşulanların sayının cüzi olması və onların səsləndirdikləri şüarlar xarici qüvvələr üçün Azərbaycan ictimaiyyəti arasında yerin olmamasının göstəricisi hesab edirəm. Bu gün Azərbaycan vətəndaşları torpaqlarımızın 30 illik işğalından sonra nail olunduğumuz qələbənin ab-havası ilə yaşayırlar. Hamı ölkə başçısının yanında olduğunu nümayiş etdirir və istəkləri də işğaldan azad olunmuş ərazilərimizin tezliklə dirçəldilməsi, ölkəmizin güclənməsi və hər bir xarici müdaxiləyə qarşı mətin olmasını arzulayır. Ona görə də ölkəmizdə sabitliyi pozmağa cəhd edən dairələr bilsinlər ki, Azərbaycan ötən əsrin 90-cı illərin əvvəlindəki Azərbaycan deyil. Azərbaycan cəmiyyəti də öz dövlətini sevir heç bir xarici sifarişçilərin istəklərinin arxasınca getməyəcək".

*Gülyana*

# "Bu, tarixə düşmüş böyük qardaşlığın əyani əlamətidir"

"Azərbaycan-Türkiyə əlaqələri davamlı olaraq yüksələn xətlə inkişaf etməkdədir, münasibətlərimizdə günü-gündən yeni parlaq səhifələr açılır. Siyasi, iqtisadi-ticarət əlaqələri, enerji, mədəniyyət, təhsil sahəsindəki əməkdaşlığımız maksimum səviyyəyə çatıb. Əlaqələrimizin bu səviyyəyə çatması, təbii ki, hər iki ölkənin dövlət başçılarının xüsusi xidmətləri sayəsindədir. Xatırladım ki, möhtərəm Prezidentimiz İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə Türkiyəyə birmənalı dəstəyini ifadə edir. Eyni münasibət qardaş ölkənin lideri Rəcəb Tayyib Ərdoğan tərəfindən də sərgilənir. Bu, dövlətlərimiz və xalqlarımız arasında movcud olan həmrəyliyin və birliyin təcəssümüdür". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.



Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqliyin bariz nümunəsidir: "Münasibətlimizin daha da dərinləşməsində ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsini xüsusi olaraq qeyd etmək istərdim. Bəyannamədəki bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatı üçün əlverişli imkan yaradır. Vətən müharibəsi dövründə qardaş ölkənin mənəvi və diplomatik dəstəyini unutmaq olmaz. Əks-hücum əməliyyatları başlayan ilk saatlardan cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün Türk xalqının bizi dəstəkləməsi, sözün həqiqi mənasında, təmənnasız qardaşlığın böyük təntənəsi idi. Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Bu, tarixə düşmüş böyük qardaşlığın əyani əlamətidir".

*Banuçiçək Hüseynli*

# Formula-1 yarışlarının keçirildiyi ölkələr bundan nə qazanır?



**Sağlam həyat üçün idmanla məşğul olmaq vacibdir. Sağlamlığınıza xeyirli olan idman növlərini dəyərləndirmək və bunun həyatınızda davamlılığını təmin etmək üçün çalışmaq lazımdır. İdmanın insanın ruhi sağlamlığı üçün də faydalı olduğunu hər kəs bilir. İdmanın şəxsi inkişafa verdiyi töhfə də danılmaz faktdır. Bədəninizlə yanaşı ruhunuzu rahatladan idman insana sakitlik verir.**

Güləş dünyanın ən qədim idman növü kimi tanınır. Dünyada ilk güləş müsabiqəsi e.ə. 200-cü illərdə Misirdə təşkil edilib. Lakin idmanın tarixi Qədim Yunanıstanda keçirilən Olimpiya Oyunları ilə, yəni atletikadan başlayır.

Eyni zamanda qədim hindlilər top atma, at və fil yarışları, güləş, boks və rəqs kimi fəaliyyətlərdə iştirak edirdilər. Ən qədim dövrlərdə idman tədbirlərinin ilk dəfə e.ə. eramızdan əvvəl 5000-ci illərdə Şumerlərdə görüldüyü qəbul edilir.

Dünya yeni qlobal idman növünün yaranmasının şahidi olur ki, bu idmanın adı Padeldir. İspaniya və Argentinada təxminən 25 milyon insanın oynadığı ikinci ən böyük idman növü halına gələn Padelə dünyaca məşhur adlar investisiya etməyə başlayıb. Tennis və squash qarışığı olan Padel 2028-ci il Olimpiadasına daxil ediləcəyi gündəmdədir.

Formula-1 üzrə dünya çempionatı hər il keçirilir və Qran Pri statusu daşıyan ayrı-ayrı mərhələlərdən ibarət olur.

İlk dünya çempionatının birinci yarışı 1950-ci il mayın 13-də Böyük Britaniyanın Silverstoun trasında baş tutub. Hər ilin sonunda çempionatın qalibi müəyyən edilir. Çempionatda həm sürücülər, həm də komandalar yarışırlar. Sürücülər dünya çempionu titulu uğrunda, komandalar isə Mühəndislər Kuboku uğrunda mübarizə aparırlar.

2016-cı ildə ölkədə beynəlxalq idman yarışlarının keçirilməsi üçün dövlət büdcəsindən 324 milyon manat ayrılması nəzərdə tutulub. Bundan sonra büdcə yenidən nəzərdən keçirilib deyə bu rəqəmin dəyişməsi mümkündür.

Komandalar hər bir yarışa özünün hazırladığı şassi ilə çıxırlar, hər bir komandanı iki sürücü təmsil edir, sürücü çempionatda iştirak etmək üçün Beynəlxalq Avtomobil Federasiyasından SuperLisenziya almalıdır. Komandalar öz şassilərinə kənar motor istehsalçısından aldıqları motoru quraşdıra bilərlər.

Formula-1 maşınlarını bolidlər, sürücülərini isə pilotlar da adlandırırlar. Bu ilki dünya çempionatı 21 mərhələdən, Qran Pridən ibarətdir. Hər bir Qran Prini üçgünlük həftəsonu təşkil edir. Reqlamentə görə, sürücülər cümə günü hər biri 1.5 saat olan iki sərbəst yürüşdə trasla tanış olurlar, maşınları qarşıdakı sıralanma turu və yarışa sazlayırlar. Monako Qran Prisində sürücülər cümə günü deyil, bir gün əvvəl- cümə axşamı eyni işi görürlər.

Daha çox sürət həvəskarlarının maraq dairəsində olan Formula 1 Qran Priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. Formula 1 yarışlarını Jan Todtun rəhbərlik etdiyi Beynəlxalq Avtomobil Federasiyası keçirir. 1904-cü ildə Parisdə yaradılan federasiya avtomobil idmanı üzrə təşkil olunan bütün növ yarış və tədbirlərə cavabdehdir.

Bəs, gəlin görək Formula-1 yarışları dünyaya nə verir? Dünyada və Azərbaycanda bu yarışlara olan maraq necədir? SİA mövzu ilə bağlı araşdırma apararaq bu barədə Milli Məclisin Gənclər və İdman komitəsinin deputatlarının və ekspertlərin fikirlərini öyrənib.

**Deputat Müşfiq Cəfərov:** "Azərbaycanda keçirilən iri-miqyaslı tədbirlər turizmin təbliğatı baxımdan olduqca önəmlidir. Böyük auditoriyaya yayımlanan Formula-1 və bu kimi yarışlarda dünyanın bir çox yerindən ölkəmizə, şəhərlərimizə tamaşa edirlər. Bu da gələcəkdə Azərbaycana turist cəlb etmək baxımından vacib əhəmiyyət daşıyır. Bu yarışlar böyük kütlə üçün Bakının, Azərbaycanın turizmini gündəmə gətirir. Beləliklə, idman azarkeşləri üçün Bakı yeni turizm məkanına çevrilir.



Ümumiyyətlə, nəinki Formula-1, bütün irimiqyaslı yarışlar, tədbirlər turizmin təbliğatına daha çox imkanlar verir və xarici investorların ölkəmizə cəlb olunmasına şərait yaradır.

Azərbaycan artıq neçə illərdir ki, beynəlxalq, dünya əhəmiyyətli yarışlara, tədbirlərə ev sahibliyi edir. İqtisadiyyatın, turizmin canlanması baxımından beynəlxalq yarışları təşkil etmək ölkəmiz üçün mühüm rol oynayır. Bu gün ən mötəbər idman qurumlarının nüfuzlu yarışlara ev sahibliyi hüququnu ölkəmizə həvalə etməsi uğur olmaqla yanaşı, inam və etibar göstəricisidir. Mötəbər bir yarışın Azərbaycanda keçirilməsi onun inkişaf etmiş ölkələr siyahısında olduğu deməkdir. Bütün yarışlardan sonra Azərbaycan dünyada bir daha idman ölkəsi kimi tanınır.

Sözsüz ki, ölkəyə çox sayda turistin gəlməsi tək turizm sahəsinin deyil, bir çox sahələrin inkişafına təkan verir. Bununla, başda turizm sektoru olmaqla, iqtisadiyyatın turizmlə bağlı müxtəlif sahələrində canlanma yaranır. Nəzərə alsaq ki, Formula-1 azarkeşləri arasında böyük beynəlxalq şirkətlərin rəhbərləri var, onlar yarışı izləməyə gəldikləri ölkələrin biznes imkanları ilə yaxından tanış olurlar ki, bu da ölkədə xarici investisiya qoyuluşuna öz töhfəsini verir. Nəticə olaraq, yarış zamanı ölkəmizdə iqtisadiyyatın bir sıra sahələrində canlanma yaranır və ölkəyə xarici investisiya cəlb edilir".

**Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov:** "Bildiyimiz kimi Formula-1 yarışı dünyada həm televiziya, həm də tamaşaçı auditoriyası olan və böyük maraq doğuran idman növlərindən biridir. Azərbaycanın paytaxtı Bakı şəhəri artıq 6-cı dəfə bu yarışlara ev sahibliyi etməklə əlaqədar olaraq paytaxt sakinləri ölkəmizin qonaqlarını sevindirir.



Formula-1 yarışları çoxmilyonluq televiziya auditoriyası olmaqla yanaşı, eyni zamanda məhz o ölkə və şəhərlərdə keçirilir ki, orada iqtisadi inkişaf, stabillik, infrastrukturun mövcudluğu, logistika və bir çox məsələlər yüksək səviyyədədir. Bu yarışın fərqliliyi həm də ondan ibarətdir ki, Formula-1 məhz paytaxtın mərkəzi küçələrində keçirilir və bu onu daha maraqlı edir.



Əlbəttə ki, Azərbaycan bu gün qalib ölkə olaraq bir çox investorların diqqət mərkəzindədir. Formula-1 yarışısının paytaxt Bakıda keçirilməsi gələcəkdə də Azərbaycana yeni şirkətlərin idmana sərmayə qoyuluşunda maraqlı olan investorların maraq dairəsində olacaq, Azərbaycanı olduğu kimi dünyaya tanıdacaq. Canlı yayım vasitəsilə paytaxt Bakının dünyaya bir daha nə qədər gözəl olduğunu nümayiş etdirəcək. Bu da öz növbəsində turistlərin Bakıya gəlişi üçün çox önəmlidir.

Bu işlərlə yanaşı eyni zamanda Formula-1-in təşkilində könüllülərin formalaşması Azərbaycanın böyük meqalayihələrin gerçəkləşməsində formalaşmış peşəkar mütəxəssislərin mövcudluğunun həm də dünyaya bir nümayişidir. Bu da cənab Prezidentimizin ölkəmizin idman siyasətinə olan diqqətinin göstəricisidir. Ümidvarıq ki, növbəti Formula-1 yarışının Bakıda keçirilməsi yaddaqalan olacaq, maraqlı və sağlam rəqabət şəraitində keçiriləcək, post-pandemiya dövründən sonra böyük azərkeş kütləsinin müxtəlif dövlətlərdən turistlərin Azərbaycan gəlişinə səbəb olacaq. Həmçinin, əvvəli illərdən fərqli olaraq ölkəmizdə keçirilən yarış qalib ölkəmizdə keçirilən yarış kimi yadda qalacaq. Bütün təşkilatçılara, zəhməti olan insanlara uğurlar arzu edirik. Ümidvarıq ki, gələcəkdə Formula-1 yarışının Azərbaycana dünyada tanınmış İdman şirkətlərinin cəlb olunmasında əvəzsiz xidmətləri olacaq".

**Deputat Cavid Osmanov:** "Formula-1 yarışları artıq dünyanın ən nüfuzlu və reytinqli yarışlarından birinə çevrilib. Yüz milyonlarla insan Formula-1 yarışlarına televiziyalar vasitəsilə, kütləvi informasiyalar vasitələri ilə canlı olaraq baxırlar.



Eyni zamanda, Formula-1 yarışlarının keçiriləcəyi şəhərlərə çoxlu sayda turistlər üz tuturlar. Biz görürük ki, ümumilikdə Formula-1 yarışlarının reytinqi ilbəil daha da artmaqdadır. Ölkəmizdə belə bir mötəbər yarışların keçirilməsi əlbəttə ki, çox vacib bir məqamdır. Ölkəmizdə keçirilən yarışlarda ilbəil gələn azarkeşlərin sayı daha da çoxalır. Əlbəttə bu vacib bir məqamdır. Çünki bura gələn insanlar eyni zamanda Azərbaycanın durmadan inkişafını, Azərbaycandakı ictimai-siyasi sabitliyi, insanlarımızın qonaqpərvər, sülhsevər xalq olduğunu bir daha görürlər.

Yarış keçirilərkən gələn insanların şəraiti üçün çox gözəl bir infrastruktur yaradılmışdır. O cümlədən bu yarışlara Azərbaycanın yüksək səviyyədə təşkilatçılıq etməsi ölkəmizin nüfuzunu daha da artırmaqdadır. Digər tərəfdən əlbəttə ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından Formula-1 yarışlarının ölkəmizdə keçirilməsi idman sahəsində çox böyük bir hadisədir.

Bir çox ölkələr istəyər ki, bu tip yarışlar onlarda da keçirilsin. Çünki Azərbaycan Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə bütövlükdə mötəbər tədbirlərin, o cümlədən idman turnirlərinin, yarışların burada keçirilməsi üçün bu illər ərzində çox böyük işlər görülmüşdür və belə mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi üçün bütün infrastruktur yaradılmışdır. Artıq bir neçə ildir ki, Formula-1 yarışları Azərbaycanda keçirilir.

Bildiyiniz kimi eyni zamanda 2015-ci ildə Azərbaycanda 1-ci Avropa oyunları keçirildi. 2017-ci ildə İslam həmrəyliyi oyunları, ondan əvvəl Avroviziya mahnı müsabiqəsi və eyni zamanda digər tədbirlər də Avropa və dünya çempionatları, futbol üzrə Avropa çempionatının bir neçə oyunlarınının, Avropa liqasının finalının Bakıda keçirilməsi bir daha onu göstərir ki, məhz ölkə başçısının rəhbərliyi ilə belə mötəbər tədbirlərin keçirilməsi üçün ölkəmiz artıq ən əlverişli şəraiti olan ölkələrdən birinə çevrilmişdir.

Son illər ərzində daha çox tədbirlərin Azərbaycanda keçirilməsi də məhz ölkəmizdə bu tədbirlərin yüksək peşəkarlıqla və təşkilatçılıqla keçirilməsini əks etdirir. İstər 2015-ci ildə keçirilən 1-ci Avropa, 2017-ci ildə İslam həmrəyliyi oyunları məhz ölkəmizdə Prezident cənab İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi tərəfindən həyata keçirilirdi".

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

**Şəhər sakini Yunis İsrafilov:** "Bu yarışlar dünyanın əksər dövləti tərəfindən izlənir. Yarışın həvəskarlarının çox olması qran-pri yarışının keçirildiyi ölkəyə gələn turist sayından da hiss olunur. Bu yarışın Azərbaycana ən çox qazandırdığı üstünlük Azərbaycanın turistik bölgə kimi tanınmasıdır. Bu istiqamətdə çox addım atılıb, Formula-1-dən əlavə, İslam oyunları, UEFA yarışlarının Azərbaycanda keçirilməsi bu sahədə atılan böyük addımlardan xəbər verir".

**Şəhər sakini Röya Vahabova:** "Mənim düşüncəmə görə Formula-1 yarışı dövlətlər üçün tanınma, irəli getmə, turizmi inkişaf etdirmə yollarından biridir. Lakin insanlar üçün bir növ futbol kimi hobbidir. Dünyada və Azərbaycanda buna maraq çox olmasa yəqin ki, bu yarışlar bu qədər təşkil edilməz. Ona görə marağın böyük olduğunu düşünürəm".

**Şəhər sakini Ülkər Xəlilli:** "Maşın həvəskarı olduğum üçün Formula-1 yarışlarına marağım var. Dünyayla müqayisədə bizdə maraq məncə daha azdır. Amma düşünürəm ki, bu ildən maraq artacaq. Hətta Formula-1-də könüllü kimi fəaliyyət göstərmək istəyirdim. Lakin bəzi səbəblərdən alınmadı. Gələn il bu yarışda könüllü olmağı düşünürəm. Bilet almamışam, lakin almağı düşünürəm.

***Ayşən Vəli***

## Florida ştatının üç şəhərində 28 may tarixi "Azərbaycan Respublikası Günü" elan edilib



ABŞ-ın Florida ştatının Hallandeyl Biç, Aventura və Mayami-Deyd şəhərlərində 28 may tarixi "Azərbaycanın Respublika Günü" elan edilib. AZƏRTAC xəbər verir ki, Hallandeyl Biç şəhər meri Coy Kuper, Aventura şəhərinin meri Enid Vaysman, Mayami-Deyd Dairə Şurası Komissarlarının sədri Jose "Pepe" Dias və mer Daniella Levin Kava bununla bağlı bəyannamə imzalayıblar. Bəyannamələrdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixindən, ABŞ-la Azərbaycan arasında strateji münasibətlər və tərəfdaşlıqdan bəhs olunub.

İmzalanan sənədlərdə, həmçinin burada yaşayan azərbaycanlıların Floridanın ictimai həyatında fəal iştirak etdikləri, regionda müxtəlifliyə, mədəniyyətlərarası anlaşmaya, sülh və firavanlığa töhfə verdikləri qeyd edilib. Bundan əlavə, bəyannamələrdə 2006-cı il oktyabrın 26-da yaradılan Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının rolu vurğulanıb.

## Bal ixracatının artması ölkəmizə nə qazandırır?

### İQTİSADÇI AÇIQLADI

"İxracat ölkədə ümumdaxili məhsulu artıran bir faktordur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib. Onun sözlərinə görə, bunun üçün də ölkələr çalışırlar ki, ixracatı artırsınlar: "Təbii ki, burada ixracatın həcmi də mühüm rol oynayır. İxracat fermerlərin mənfəətini artıraraq ölkədə yeni iş yerlərinin yaranmasına səbəb olur. Bu baxımdan bal ixracatının artması müsbət bir əhəmiyyətə malikdir. İxracat nə qədər çox olarsa bir o qədər yaxşı olar. Ölkənin aidiyyəti qurumları da çalışır ki, qeyri-neft sektorundakı ixracat artsın. Aəzrbaycanın ixracat edə biləcəyi məhsulların çeşidi kifayət qədərdir. Lakin burada əsas məsələ ondan ibarətdir ki, bu ixracatın əsasının qaz və neft məhsulları təşkil edir. Həmçinin qiymətləri dünya bazarından aslıdır. Bu da ölkə iqtisadiyyatının dünya bazarında əməət qiymətlərinə aslılığı artırır. Buna görə də hökumət çalışır ki, qeyri-neft sektorunun ixracatını artırsın".



***Banuçiçək Hüseynli***

## Rusiyadan taxılın idxal olunmaması Azərbaycana necə təsir edəcək?

### İQTİSADÇIDAN AÇIQLAMA

"Rusiya uzun müddət Azərbaycanın taxıl idxalında ən böyük tərəfdaşı olub. Ötən il Rusiyada 300 milyon dollarlıq taxıl idxal olunub". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, Azərbaycanın idxal etdiyi taxılın təxminən 80 faizə yaxını əvvəlki illərdə Rusiyanın payına düşürdü: "Lakin Rusiya-Ukrayna müharibəsindən sonra Rusiya taxıl ixracatını dayandırıb. Yalnız Azərbaycan deyil, Rusiyadan taxıl alan digər ölkələr də artıq şimal qonşumuzdan taxıl idxal etmirlər. Ona görə də təbii ki, Azərbaycan alternativ olaraq başqa ölkələrdən taxıl idxalını həyata keçirməyə çalışır. Azərbaycan Ruysiya-Ukrayna müharibəsi başlamazdan öncədə taxıl ehtiyatlarını artırmağa çalışırdı. Bu ilin yanvar ayında Azərbaycanın idxal etdiyi taxılın həcmi 4 dəfə artıb. Bu da bir başa daha çox ehtiyatların formalaşması ilə bağlı idi. Təbii ki, alternativ mənbələrlə yanaşı yerli istehsalın genişləndirilməsi əsas hədəflərdəndir. Nəzərə alsaq ki, artıq gələn ay mövsümi olaraq taxıl biçimi başlayacaq. Bu da yerli istehsalın yerli tələbinin ödənilməsi baxımından vacibdir. Son proseslər onu göstərir ki, indiki halda Azərbaycan üçün əsas prioritet yerli istehsalın genişləndirilməsi, istehlakın daha çox daxili mənbələr hesabına ödənilməsinə nail olmaqdır. Hazırda istehlakın 60 faizi yerli, 40 faizi isə idxal hesabına ödənilir. Bu da ondan xəbər verir ki, istehsalın genişləndirilməsi azərbaycanda daxil olan tələbin daha çox yerli mənbələr hesabına ödənilməsinə gətirib çıxarda bilər".

***Banuçiçək Hüseynli***



# Canlı tariximizi yaşadacaq Zəfər muzeylərimiz

**Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində 30 il ərzində maddi-mədəniyyət abidələrimiz vəhşicəsinə dağıdılaraq, yerlə-yeksan edilmişdir. Əlbəttə ki, bu erməni vandallığının bir nümunəsidir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı düşməndən azad etdikdən sonra erməni vandallarının bədxah əməlləri bütün dünyaya çatdırıldı və dünya özü bu vəhşiliyin canlı şahidinə çevrildi.**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kitabxanalar, mədəniyyət evləri, mədəniyyət mərkəzləri, klublar, muzeylər, uşaq musiqi məktəbləri daxil olmaqla, 180 mədəniyyət obyekti tamamilə dağıdılıb. Erməni tərəfinin törətdiyi qeyri-insani hərəkətlərinin ağır nəticələrini nəinki insanlarımız, eləcə də tarixi-dini mədəniyyət abidələrimiz də yaşamışdır. 1988-ci ildən başlayaraq, erməni təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş ərazidə qalmışdı. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 30 mindən artıq tarixi əhəmiyyətli əşya olub. Zəngilan, Qubadlı, Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeylərində də minlərlə abidə talan edilib. Bu muzeylərdə qorunub saxlanılan eksponatlar ermənilər tərəfindən ərazidən çıxarılıb. Bir qisim muzey əşyalarımız 3-cü ölkələrə də aparılıb. Canlı muzey hesab olunan Şuşa şəhərində 8 muzey fəaliyyət göstərmişdi. Şuşanın işğalı zamanı Xalça və Tətbiqi Sənət Muzeyinin Şuşadakı filialı, Üzeyir Hacıbəylinin Şuşadakı Ev Muzeyi və s. işğala məruz qalıb. Şuşa şəhərində Şuşa və Xankəndi diyarşünaslıq muzeyləri tamamilə dağıdılıb. Dövlət Qarabağ Tarixi Muzeyi, Natəvanın, Bülbülün, Əbdürrəhimbəy Haqverdiyevin, Mir Mövsün Nəvvabın və başqalarının ev muzeyləri, Qurban Pirimovun Ağdamdakı xatirə muzeyi, Ağdam, Füzuli, Xocalının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilib. Eyni zamanda, Ağdamdakı unikal Çörək muzeyi də digər muzeylər kimi dağıdılıb. Bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində muzeylərimiz də bərpa və təmir olunur. Musiqiçilərdən Bülbülün, Üzeyir Hacıbəylinin ev muzeyləri təmir və bərpa olunub. Bütün bunlarla yanaşı, Ağdamda Zəfər və İşğal muzeyləri də yaradılacaq. Bu muzeylərin yaradılmasında məqsəd 30 illik işğal dövründə Azərbaycan xalqının keçdiyi çox çətin yolu göstərməkdir. Belə ki, Qarabağın, Ağdamın tarixi faktlarla göstəriləcək. Ağdamın dağıdılması, yerlə-yeksan edilməsi və s. videolarla və hekayələrlə təqdim olunacaqdır. Memorial bağ isə səma altında muzey olacaq. Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə dövlət başçısının Sərəncamı ilə paytaxtımızda Bakı şəhərində Vətən müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi yaradılacaq.





**AZƏRBAYCANDA**

**MUZEY İŞİNİN TARİXİ**

Hər il dünyada 18 May Beynəlxalq Muzeylər Günü kimi qeyd edilir. Bu bayram, bir qayda olaraq, "Xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək" şüarı ilə keçirilir. Beynəlxalq Muzeylər Günü - Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunub. Beynəlxalq Muzeylər Gününün əsas məqsədi muzeylərin cəmiyyətin həyatında nə qədər mühüm bir rol oynadığını göstərməkdir. Bu bayram dünyanın 150-dən artıq ölkəsində qeyd edilir. Tarixi, maddi və mənəvi abidələrlə zəngin olan ölkəmizdə də Beynəlxalq Muzeylər Günü qeyd edilir.

Azərbaycanda muzey işinin tarixi çox da qədim deyil. Azərbaycanın ictimai-siyasi və mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən, sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermişdir. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində pedaqoji, həmçinin, Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılmışdır. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin maraqlarına xidmət etmişdir. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tbilisi, Moskva və Peterburq muzeylərinə göndərilmişdir.

Azərbaycanda muzeylərin təşəkkül tapmasının əsası XX əsrin ikinci onilliyinin əvvəllərində qoyulmuşdur. "Doğma diyarın öyrənilməsi muzeyi" adlanan ilk muzey 1920-ci ildə Bakıda, ilk memorial muzey isə 1938-ci ildə Şəkidə yaradılmışdır. Azərbaycanın dəyərli eksponatları 1920-ci ildə ilk muzey yaranana qədər Rusiya, Avropa, o cümlədən, Böyük Britaniya muzeylərini bəzəsə də, bu gün tariximiz və incəsənət nümunələrimiz dövlət muzeylərimizdə nümayiş olunur. Azərbaycanda muzey fondu ölkə milyonçularının sovet hakimiyyətinin ilk illərində müsadirə edilmiş sənət əsərləri əsasında yaradılmışdır. H.Z.Tağıyevə, M.Muxtarova, M.Nağıyevə, bir sözlə, Bakı milyonçularına məxsus qiymətli sənət əsərləri ilk muzeyimizin eksponatları olmuşdur.



**AZƏRBAYCANDA 200-DƏN ÇOX MUZEY FƏALİYYƏT GÖSTƏRİR**

Ölkəmizdə bu sahənin inkişafı, muzeylər şəbəkəsinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimiz həmişə muzeylərə böyük önəm vermiş, bu sahəyə də diqqət və qayğı ilə yanaşmışdır. Xalqımızın böyük oğlu Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızda muzeylərin, xüsusilə, tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin və digər profilli muzeylərin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə mühüm tədbirlər həyata keçirmişdir. Qısa müddətdə Azərbaycanın 60-dək rayonunda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Dahi Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mədəniyyət sahəsi, həmçinin, muzey işi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilmişdir. 1994-cü ildə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edilmişdir. 2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir. Bu gün Prezident İlham Əliyev tərəfindən bu sahədə uğurlu addımlar atılır, böyük layihələr reallaşır. Hazırda Azərbaycanda 200-dən çox muzey fəaliyyət göstərir.

Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal Abidəsinin ucaldılması haqqında" 2006-cı il 18 dekabr və "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 2006-cı il 19 dekabr tarixli sərəncamları muzey işinə dövlət qayğısının aydın təzahürüdür. Prezident İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı" və digər normativ aktlar bu sahədə hüquqi bazanın formalaşdırılmasının əyani ifadəsidir. Həmin Sərəncama əsasən, Azərbaycan Xalçası və Xalq Tətbiqi-Sənət Dövlət Muzeyinin müasir tələblərə, beynəlxalq standartlara cavab verməsi üçün yeni binada fəaliyyət göstərməsi məqsədəuyğun hesab edilmiş, muzeyin yeni binası tikilmişdir.

Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyi nəticəsində "Şirvanşahlar Sarayı Kompleksi", Qız Qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində, milli-mənəvi dəyərlərimizə, o cümlədən, muzey işinə daim dövlət qayğısı olmuş və bu gün də var.

***Zümrüd BAYRAMOVA***

ANALİTİK + AKTUAL

# Finlandiya və İsveç NATO-ya daxil olmaq üçün Türkiyədən asılıdırlar

## Hətta Vaşinqton öz maraqlarını təmin etmək üçün Ankaranın ayağına düşə bilər

**Finlandiya və İsveç NATO-ya üzv olmaq üçün qəti qərarlarını veriblər. Və bu gün bir çoxlarını bu kimi sual düşündürür: nəyə görə məhz indi? İki Skandinav ölkəsinin şimal hərbi alyansına qoşulmasının əsas səbəbləri Rusiyadırmı? Yaxud, bu məsələnin növbəti müharibəyə doğru inkişaf etməsi nə qədər real görünür?**

Əslində həm Finlandiyanın, həm də Finlandiyanın NATO-ya üzv olma mümkünlükləri barədə söhbətlər çoxdan gedirdi. Lakin Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlamasından sonra həmin mövzu aktuallığının ikinci fazasına keçid aldı və siyasi gündəmdə ən çox müzakirə obyektinə çevrildi. Onu da xatırlada bilərik ki, Ukraynada müharibənin başlamasına az müddət qalmışa qədər Rusiya NATO-ya təhlükəsizlik sazişi imzalamağı təklif edirdi. Lakin həmin ərəfədə alyansın baş katibi Yens Stoltenberq anidən bəyan etdi ki, rəhbərlik etdiyi qurum Finlandiya ilə İsveçi öz aralarında görməkdən şad olardı. Ancaq skandinavlar da qərarlarını tələsik verməyə hazır deyildilər. Misal üçün, həmin ərəfələrdə Finlandiyanın xarici işlər naziri Pekka Xaavisto açıq şəkildə bəyan etdi ki, onun ölkəsi hələlik NATO-ya üzv olmağı planlaşdırmır. Üstəlik, Rusiyanın XİN rəhbəri Sergey Lavrov da bəyan etdi ki, Rusiyanın Finlanndiya ilə tarixi dostluq münasibətləri formalaşıb. Lavrov Stoltenberqin ifadələrini qonşularına və Rusiyaya təzyiq cəhdi kimi qiymətləndirib.

Məhz Ukraynada başlayan müharibə böhranından sonra mövzu ətrafındakı müzakirə yeni səviyyəyə çıxdı. Artıq indi həm finlər, həm də isveçlər NATO-ya daxil olmaq üzrədirlər. Belə ki, ötən ay Britaniyanın "The Times" nəşrinin yazdığına görə, Finlandiya ilə İsveç artıq yay aylarında NATO-nun üzvü olacaqlar. Bu ölkələrin XİN rəhbərləri proqnozu təsdiq etməsələr də, inkar da etmirdilər, hətta bu addımın realizəsini də istisna etməyərək mümkünlüyünü müxtəlif diplomatik tərzləri ilə nümayiş etdirirdilər. Görünür, bu vasitələrlə həm Helsinki, həm də Stikholm NATO-nun digər üzv ölkələrinin də reaksiyalarını yoxlamağa qərar vermişdilər. Misal üçün, birdən kimsə boykot edər və plan realizə olunmamış qala bilər, məsələn, Türkiyəni götürək...



Artıq məlumdur ki, Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan bu ölkələrin NATO-ya üzv olunmasına qarşı çıxış edir və haqlı olaraq etirazını həmin ölkələrin PKK terror təşkilatı ilə münasibətlər saxlaması ilə əsaslandırır. Əgər Türkiyə NATO-nun ən güclü ölkəsi kimi etiraz edərsə nə Finlandiya, nə də İsveç Türkiyəyə qarı yanlış siyasət aparmalarına görə ciddi siyasi məğlubiyyətə uğrayaqlar. Çünki Ankara dəfələrlə (!) Helsinkiyə və əsasən də Stiokholma öz hiddətli etirazlarını bəyan etmişdi. Eşitmədiər və bu gün öz yanlış siyasətlərinin altını çəkməklə üzüzə qalıblar.

Təbii ki, skandinavlar Rusiyanın da münasibətindən agah olmalarına rəğmən, yenə də oni yoxlamağa qərar veriblər. Gözlənilən də baş verib - Kreml qonşularının bu addımlarından kifayət qədər narazı olduğunu bəyan etdi. Hətta bir neçə gün əvvəl bəyan olundu ki, Finlandiya ikitərəfli münasibətlərə zərbə vurur və Rusiya "hərbi-texniki ölçülər" götürməli olacaq. Amma Rusiyanın sərt bəyanatları skandinavları qorxutmadı, nə qədər ki, Türkiyənin etirazı onları daha çox tələşlandırır!

Bəs proseslər haraya doğru inkişaf edir? Məsələ həm də ondadır ki, NATO-ya yeni üzvlər qəbul olunarsa Rusiya şimal-qərb sərhədləri boyu hərbi diqqətini daha da artırmağa başlayacaq. Bu isə hərbi xərclərin artması deməkdir. O cümlədən, Finlandiya ilə İsveçin NATO-ya üzvlükləri ABŞ-ın həmin ölkələrin ərazilərinə öz kontingentini göndərməsinə, raketlərini yerləşdirməsinə imkanlar yaradacaq.

İndi əsas söz sahibi kimi yenə də Türkiyə qalmaqdadır. Əgər Ankara bu qərara qarşı çıxarsa, bu zaman Rusiya da qazanmış olur. Ona görə də təkcə Finlandiya ilə İsveçin NATO-ya üzv olmaq istəkləri başda ABŞ olmaqla, Rusiyanın da siyasi mənada ondan asılı vəziyyətə düşməsinə şərait yaradır və Ankara bu situasiyadan istifadə etməklə öz siyasi və strateji maraqlarının tam təmin olunmasını həyata keçirmək şansını qazana bilər.

***Rövşən RƏSULOV***

# "Ermənistanda müxalifət əhalinin mütləq əksəriyyətini tam qazana bilməyib"



POLİTOLOQ AÇIQLADI

**"Son günlərdə Ermənistanda müxalifətin aktivləşməsi və ümumiyyətlə siyasi proseslərin gərginləşməsi həm cəmiyyət üzərində, həm də regionda baş verən proseslərə təsirsiz ötüşməyəcək". Bu sözləri SİA-ya açıqlamasında politoloq Aytən Qurbanova deyib.**

Onun sözlərinə görə, revanşist əhval-ruhiyyəli radikal müxalif qüvvələrin Paşinyanın administrasiyasına qarşı əhalinin mütəşəkkil mövqe nümayiş etdirməsi ilə bağlı çağırışları və bu istiqamətdə atılan addımlar təbii ki, bir çox məqsədləri özündə ehtiva edir: "Ən əsas məqsəd isə regionda baş verən dəyişikliklər, yeni reallıqlar və Azərbaycan ilə Ermənistan münasibətlərinin normallaşması istiqamətində sülh danışıqları prosesində əldə olunan uğurun nəticələrinə mane olunmasıdır. Çağırışlarda, səsləndirilən şüarlarda da daim radikal mövqelərin nümayiş etdirilməsi bunun bariz nümunəsidir. Amma onu da nəzərə almaq lazımdır ki, müxalifət əhalinin mütləq əksəriyyətini tam qazana bilməyib".

Politoloq fikirlərinə davam edərək həmçinin qeyd edib ki, gələcək günlər Paşinyan administrasiyası üçün yeni siyasi manevrlər edilməsi və hakimiyyətdə möhkəmlənmək üçün növbəti fürsət ola bilər: "Bu istiqamətdə atıla biləcək addımlar, Paşinyan administrasiyasının ortaya qoyacağı mövqe təbii ki, proseslərin gedişatını dəyişdirəcək əsas istiqamətlərdən biri ola bilər. Amma indiki vaxtda dəyərləndirdikdə onu deyə bilərik ki, müxalifət istənilən halda hər hansı bir formada cəmiyyətdə olan narazılıqlardan istifadə edərək əhalini hakimiyyət əleyhinə çalışsa belə, ya da xarici dairələrin və ya erməni lobbisinin dəstəyi ilə bu istiqamətdə müəyyən addımlar atsa belə mütləq əksəriyyətin tam dəstəyini qazana bilməyib. Bu da Paşinyan administrasiyasının gələcək perspektivi üçün mövcud olan təhlükənin o qədər də yüksək həddə olmadığının göstəricisidir".

***Arzu Qurbanzadə***

# "Qaranlıq dairələrin sifarişi ilə keçirilən qanunsuz aksiya pozuculuğa cəhd idi"

"2-ci Qarabağ müharibəsindən sonra istər ölkə daxilində, istərsə də ölkə xaricində əldə etdiyimiz ən mühüm nailiyyətlərdən biri cəmiyyətimizin vahid mövqedən çıxış etməsi, birliyimiz, həmrəyliyimizdir. Məhz bu birlik sayəsində Azərbaycan dövləti, xalqı 30 illik düşmən işğalına son qoyaraq erməni faşizminə qalib gəldi". "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova "Səs" qəzetinə açıqlamasında deyib.



Onun sözlərinə görə, əldə etdiyimiz Qələbə bir çoxlarını razı salmır: "İllər boyu ölkəmizə qarşı məkrli planlar həyata keçirənlər Qələbəmizə kölgə salmaq, uğurlarımızın davamlı olmasını əngəlləmək üçün müxtəlif ssenarilər hazırlayır, daxildə və xaricdə olan "tərəfdaşları" ilə ictimai-siyasi sabitliyi pozmağa çalışırlar. Bəzi ictimai fəalların və siyasi partiya nümayəndələrinin, qaranlıq dairələrin sifarişi ilə keçirdiyi qanunsuz aksiya pozuculuğa cəhd idi. Ancaq istəklərinə nail ola bilmədilər. İndi dövlət və xalq olaraq qarşımızda dayanan bir neçə mühüm vəzifə var. İşğaldan azad edilmiş ərazilərin bərpası, qaçqın və məcburi köçkünlərimizin öz doğma torpaqlarına qaytarılmasını təmin etmək, Qarabağ ərazisində dövlətimizin suverenliyini tam şəkildə bərpa etmək, düşməni sülhə məcbur etmək... Bu məqsədlərin həyata keçirilməsi üçün Azərbaycanın öz gücünə yaratdığı yeni reallıqlar qeyd etdiyim kimi, bir çox ermənipərəst xarici qüvvələrin maraqlarına zərbə vurur. Dünyada baş verən çaxnaşmalar və qeyri-sabit vəziyyətin Azərbaycanda da yaşanmasını arzulayanlara bu fürsəti verməməli, daxili birliyimizi, həmrəyliyimizi qoruyub saxlamalıyıq".

***Gülyana***

SİYASİ RAKURS+AKTUAL

# Qərbin qərəzli dairələri Azərbaycan-Türkiyə tandemi qarşısında acizdirlər!

## Hikmət Hacıyev: "Ölkələrimizə qarşı qarayaxma, saxta xəbər kampaniyaları bu gün də davam etməkdədir"

Artıq kifayət qədər məlumdur ki, Azərbaycana qarşı qərəzli və şər-böhtan xarakterli münasibətlərin əksər çoxluğu bir sıra Qərb siyasi dairələrindən, habelə onlarla iş birliyində olan erməni lobbisi tərəfindən yönəldilir. Belə münasibətlər əlbəttə ki, nəticəsiz qalır, yaxud Azərbaycana qarşı işlədilən bənzər mexanizmlər sadəcə işlək vəziyyətə düşə bilmir. Bunun isə əsas faktoru ölkəmizdə aparılan müstəqil və qətiyyətli siyasət reallığıdır. Əbəs deyil ki, sözdə "demokratiya", "söz və ifadə azadlığı" və s. tipli saxta oyunbazlıqları ilə hərəkətə keçməyə çalışan bəlli Qərb institutları sözdən əmələ gələndə nə demokratiya, nə də digər məqamlara ümumiyyətlə, etina göstərmirlər. Biz təkcə Qərb ölkələrində cərəyan edən siyasi proseslərdə, sosial narazılıqlarda bütün bunları müşahidə edirik. Eləcə də kütləvi xalq etirazları fonunda polis zorakılıqlarından tutmuş digər nüasnlara qədər insan haqları və hüquqlarının pozulmaları faktlarını da buraya əlavə edə bilərik.






**Qarabağ müharibəsində psixoloji müharibənin bütün elementləri ilə üz-üzə gəldik"**

### Qərbin yanlış yanaşması tərzi - bütün tərəfləri dinləmək üçün bərabər imkanlar təqdim etməli olan müxtəlif platformalar çox vaxt əks fikri inkar edir

Gəlin Azərbaycanla bağlı qərəzli mövqedən çıxış edən, əslində isə cavab haqqı tanımayan, həmçinin söz və ifadə azadlığını kobudcasına öozan bəzi beynəlxalq təşkilatların adlarını xatırladaq. Misal üçün, xatırlada bilərik ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ötən il Azərbaycan əleyhinə əsassız iddialara qarşı yazdıqları cavab yazılarını dərc etməkdən imtina edən beynəlxalq institutlara dair ingilis dilində hesabat hazırlayıb. Hesabatda vurğulanıb ki, azərbaycanlı ekspertlər, akademiklər və şərhçilər üçün münaqişə və regionla bağlı Qərbdəki akademik jurnallarda yazı dərc etdirmək hər zaman çətin olub və 2021-ci ildə də bu şəkildə davam edib. Eyni zamanda bildirilib ki, 2021-ci ildə "Forbes" "Columbia Journalism Review", "Institute for the Study of Human Rights", "New Lines Institute for Strategy and Policy", "Responsible Statecraft" kimi təşkilatlar Azərbaycana qarşı qərəzli yanaşmanı davam etdirərək ekspertlərin Azərbaycana dair əsassız ittihamlara dair cavab yazılarını dərc etməkdən imtina ediblər.

SİTAT: "Bütün tərəfləri dinləmək üçün bərabər imkanlar təqdim etməli olan müxtəlif platformalar çox vaxt əks fikri inkar edir. Belə ki, Azərbaycanın mövqeyinə dözümsüzlük nümayiş etdirən qurumlar bir tərəfdən demokratik dəyərlərin müdafiəçisi olduqlarını iddia edir, digər tərəfdən isə regionla bağlı əsassız iddiaların, düzgün olmayan ifadələrin və təhrifli fikirlərin səsləndirilməsini təşviq edirlər. 30 ilə yaxın müddət ərzində bəzi Qərb şərhçiləri "balanslı yanaşma" oyunu oynamaqla işğalçı ilə işğala məruz qalan arasında fərq qoymadan təcavüzkarla, bir milyona yaxın qaçqın və məcburi köçkünlə üzləşən, etnik təmizləməyə məruz qalan ölkəyə eyni səviyyədə yanaşırlar".

Hesabatda bu qərəzli yanaşmanın Qərb ölkələrində liberal dairələrin ermənilərə rəğbəti və gizli xristian həmrəyliyi, ya da xristian klubu konteksti çərçivəsindəki yanaşma səbəbindən baş verə biləcəyi qeyd olunub.

Prezidentin köməkçisi:
**""Xüsusilə 44 günlük İkinci**

Bu arada, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin İstanbulda keçirilən 4-cü toplantısında mövzu ilə bağlı bir neçə mühüm məqamlara toxunmaqla əsl gerçəkliyi vurğulayıb. "Təəssüflər olsun ki, ölkələrimizə qarşı qarayaxma, saxta xəbər kampaniyaları bu gün də davam etməkdədir", deyə qeyd edən Hikmət Hacıyevin sözlərinə görə, Azərbaycan müstəqilliyinin ilk illərindən bu hücumlara məruz qalıb: "Xüsusilə 44 günlük İkinci Qarabağ müharibəsində psixoloji müharibənin bütün elementləri ilə üz-üzə gəldik. Diplomatlarımızın, siyasətçilərimizin bir cəbhədə çalışdığı kimi, Azərbaycan və Türkiyə mediasının da birgə çalışması nəticəsində haqq-ədaləti dünyaya çatdırmış olduq".

### Belə bir sarsılmazlıq gerçəkliyi qarşıdakı illərdə də qərəzli, şər-böhtançı Qərb strukturlarının ayaq açmasına imkan verməyəcək!

Beləliklə, biz buradan daha bir real və məntiqi nəticəni də çıxara bilərik. Bu gün Azərbaycanla Türkiyə iki müttəfiq və qardaş ölkələr olmaqla regional siyasətdə paralel addımlar atır, həmçinin beynəlxalq platformalarda sarsılmaz, qarşılıqlı dəstəklər göstərirlər. Əgər bu gün Azərbaycana qarşı təzyiqlərə cəhdlər olursa belə təzyiqlər Türkiyəyə qarşı da göstərilir və bütün bunların öhdəsindən yalnız vahid qardaşlıq faktoru uğurla gəlməyi bacarır.

Yəni bənzər Qərb siyasi institutları Türkiyəyə qarşı da davamlı qərəzlər nümayiş etdirirlər və Türkiyənin ölkə rəhbərliyinin qətiyyəti həmin qərəzlərin ayaq açıb yürüməsinə imkan vermir. Bunlar isə birgə çalışmağın, birə qardaşlığın məntiqi nəticəsidir ki, Hikmət Hacıyev həmin məqama özəlliklə toxunub və diplomatlarımızın, siyasətçilərimizin bir cəbhədə çalışdığı kimi, Azərbaycan və Türkiyə mediasının da birgə çalışması nəticəsində haqq-ədalətin dünyaya çatdırmış olduğunu qeyd edib.

Nəticədə isə biz əminliklə qeyd edə bilərik ki, belə bir sarsılmazlıq gerçəkliyi qarşıdakı illərdə də qərəzli, şər-böhtançı Qərb strukturlarının ayaq açmasına imkan verməyəcək və yalnız Azərbaycan deyil, həmçinin Türkiyə də qətiyyətli siyasət həyata keçirməklə istər regional, istərsə də qlobal dünyanın siyasi-iqtisadi fonunda uğurlarını qazanmağa davam edəcəklər.

*Rövşən RƏSULOV*

# Aydın Mirzəzadə: "Xarıbülbül" festivalı bundan sonra bizim həyatımızın bir hissəsi olacaq"



"Sovet dövründə də "Xarıbülbül" festivalı Azərbaycan üçün böyük bir hadisə idi. Bununla biz tariximizin və mədəniyyətimizin dərinliyini, Azərbaycan xalqının öz mədəni irsinə bağlılığını nümayiş etdiririk". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə bildirib.

Onun sözlərinə görə, torpaqlarımız işğaldan azad edildikdən sonra qısa bir müddət ərzində Şuşada artıq 2-ci dəfə bu festivalı keçirmək mümkün oldu: "Baxmayaraq ki, Şuşa tam bərpa edilməyib və hələ Şuşamız arzuladığımız səviyyədə deyil amma bununla belə minimal imkanlarla bütün dünyanın diqqətini cəlb edən bir festivalın keçirilməsi mümkün oldu. "Xarıbülbül" festivalı bizim torpağımıza, mədəniyyətimizə və irsimizə bağlılığımızın nümunəsidir. Ötən ildən fərqli olaraq bu il festivalda mədəniyyət nümyəndələri də iştirak etdilər. Görünən budur ki, ildən-ilə bu festivalın iştirakçılarının sayı getdikcə artacaq. Biz bir daha bütün dünyaya mədəni və yaradıcı xalq olduğumuzu göstərdik. Bizdən fərqli olaraq Ermənistan 30 il ərzində bu torpaqları viran qoyaraq, mədəniyyət irsi olan Şuşada böyük dağıntılar törətdi. Bu gün işğaldan azad olunan zonanı ziyarət edənlər xarici nümayəndələr iki sivilzasiya arasındakı fərqi aydın seçə bilirlər. "Xarıbülbül" festivalı bundan sonra bizim mədəni həyatımızın aydın bir hissəsi olacaq. Bu sevinci bizə yaşadan Ali Baş Komandan və torpaqlarımız uğrunda vuruşan şəhidlərimizə, qazilərimizə öz minnətdarlığımızı bildiririk".

*Banuçiçək Hüseynli*

# "Ermənistan sülh sazişi imzalamağa məhkumdur"



"Ermənistanla Azərbaycan arasında bütün hallarda sülh sazişi imzalanmalıdır və imzalanacaq. Çünki əgər atəşkəs varsa, Ermənistanın təcavüz nəticəsində yaratdığı status-kvo hərbi diplomatik yolu ortadan qaldırılıbsa bu proses sona çatdırılmalıdır. Əgər Ermənistan kapitulyasiya aktına imza atdıqdan sonra sülh sazişini imzalamasa bu artıq yeni bir müharibəni labüd edən hadisəyə çevriləcək və Azərbaycan tərəfindən hərbi yöndə təzyiq addımlarının atılmasına əsas yaradacaq. Ona görə də Ermənistan sülh sazişini imzalamalıdır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, ancaq bu gün Ermənistanda fəallaşan revanşistlər bu prosesə əngəl olmağa çalışırlar: "Ona görə ki, revanşist deyilən qüvvələr Ermənistanı 30 il öncə Azərbaycana qarşı təcavüzə sürükləyiblər. Onlar yaxşı başa düşürlər ki, Azərbaycanla Ermənistanın indiki rəhbərliyi sülh sazişi imzaladıqdan sonra həmin revanşist deyilən və hakimiyyətdən salınmış qüvvələrin Ermənistanın siyasi proseslərində iştirak etməsi üçün daha heç bir ideoloji əsas qalmayacaq.

Bu gün revanşistlərin ideologiyası Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq yolu ilə Ermənistanın sərhədlərinin ərazilərini genişləndirilməsidir. Əgər Ermənistan Azərbaycana qarşı ərazi iddialarına rəsmi imtinanı və Azərbaycanla dinc yaşamağı özündə ehtiva edən sülh sazişinə imza atsa, deməli revanşist qüvvələrin Ermənistanın gələcək siyasi həyatında fəaliyyət göstərməsinə gərək qalmayacaq. Sülh sazişi imzalanmasa revanşist qüvvələr tarixin zibilliyinə atılmalı olacaqlar. Bu mənada hakimiyyətdən salınmış və ultramillətçi erməni qüvvələri nəyin bahasına olursa-olsun, indiki Ermənistan hakimiyyətinin Azərbaycanla sülh sazişi imzalamasına maneəçilik törətməyə çalışacaqlar".

Aydın Quliyev sözlərinə belə davam edib: "Əslində hadisələr ona oxşayır ki, Ermənistanın indiki hakimiyyəti və şəxsən Paşinyan da Azərbaycanla sülh sazişinin imzalanmasına o qədər də qətiyyətlə yanaşa bilmir. Çünki Avropa Birliyinin aprelin 6-da vasitəçiliyi ilə əldə olunmuş razılaşmaya görə aprelin 30-na qədər iki ölkə arasında delimitasiyanın həyata keçirilməsi üçün komissiya yaradılmalı və onun iclası keçirilməli idi. Bu günə qədər Ermənistan həmin komissiyanın tərkibini elan etməyib və delimitasiya komissiyasının ilk iclası belə keçirilməyib.

Bu gün Azərbaycan 5 prinsip əsasında sülh sazişinin imzalanması danışıqlarına başlamağı təklif etsə də Ermənistandan konkret bir mövqe yoxdur. Ermənistan Azərbaycanın 5 prinsipinə 6 maddədən ibarət olan reaksiya verib. Artıq bu bəllidir. Yəni, Ermənistanın hansı prinsiplərlə sülh sazişi imzalamağa başlamaq niyyəti bəlli deyil. Burada əngəl həm revanşist qüvvələr, həm də hazırkı Ermənistan hakimiyyəti qüvvələrinin sülh sazişi danışıqlarına başlamasına hazır olmamasıdır. Bütün hallarda Ermənistan sülh sazişi imzalamağa məhkumdur. Çünki o döyüşdə məğlub olub. Əgər sülh imzalanmasa, bu yeni müharibə deməkdir".

*Ayşən Vəli*

# Azad Suqovuşanda ilk beynəlxalq yarış: prinsip, potensial, qürur


© Trend News Agency

30 ilə yaxın anası Azərbaycandan qoparılan Suqovuşan Tərtər rayonunun ərazisində qəsəbədir. Bir neçə çayı sinəsində qovuşduran Suqovuşan Tərtərlə tanınmır, əksinə Tərtər Suqovuşanla tanınır. Coğrafi baxımdan da çox əlverişli olan bu gözəlliklər diyarı zaman-zaman ermənilərin tamah dişi olmuş, ondan illərlə faydalanmış, hətta ən böyük hərbi hissələrini də burada yaratmış, gələcəyə hesablanmış geniş plan qurmuşdular. Lakin İkinci Vətən Müharibəsi onların bu planlarını darmadağın etdi. Müharibənin 7-ci günü azad edilən Suqovuşan Qarabağ Zəfərinin açarı rolunu oynadı. Və ilk qələbələrimizdən olan Suqovuşan Zəfəri sanki bir aydınlıq rəmzinə çevrildi. Bu aydınlıq qarşıda yeni qələbələrin müjdəçisi idi. Suqovuşanda günlərdir təəssüratından çıxa bilmədiyimiz ilk beynəlxalq yarışın keçirilməsi müharibə dövründə dövlətimizin başçısının prinsipial mövqeyinin davamı, "dəmir yumruğ"un nələrə qadir olduğunun göstəricisi oldu.

### Prinsip olan yerdə

Bəli, prinsip olan yerdə məqsədin hədəfi düz ünvandır. 30 il işğal altında qalan torpaqlarımızın geri qaytarılması da prinsipiallığın nəticəsi oldu. Çünki bunun üçün dövlət başçısı tərəfindən illərlə böyük işlər həyata keçirildi. Bu torpaqlar ya danışıqlar, sülh yolu ilə alınmalı, ya da müharibə yolu ilə geri qaytarılmalı idi. Ötən 18 ilin hər dəqiqə və saatı Qarabağın azadlığına yönəldildi. Hər iki yol üçün hazırlıqlar paralel şəkildə həyata keçirildi. Danışıqlar aparıldı, görüşlər keçirildi, müraciətlər olundu, eyni zamanda ölkənin iqtisadiyyatı gücləndirildi, ordusu təkmilləşdirildi, möhkəmləndirildi. Yəni prinsip etibarilə hər iki istiqamət eyni amala xidmət etdi.






Azərbaycan xalqı tarixən sakit yaşamağı sevən, bunun üçün qonşuları ilə yaxşı münasibətlər quran bir xalqdır. Biz heç vaxt müharibə istəməmişik. Ailə dəyərləri, övlad sevgisi bu xalq üçün əvəzolunmaz hislərdir. Bu səbəbdən də heç bir qadın həyat yoldaşını, heç bir ana övladını itirmək istəməz. Eyni zamanda qonşudakı insanlara da eyni dəyərlə yanaşmışıq. Qan tökülməsini istəməmişik. Prezident İlham Əliyevin dediyi kimi: "Biz sadəcə olaraq qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı".

Lakin bu xalq torpağını övladından da artıq sevir. Çünki torpaq hər bir azərbaycanlı kişinin şərəfi, qadınınsa ismətidir. Bu səbəbdən onlar övladlarını qurban verərlər, lakin torpaqlarının bir qarışının kimdəsə qalmasına razı olmazlar. Beləliklə xalq-dövlət birliyi bu 30 illik çözülməsi çətin məsələnin həlli oldu.

Nəticə isə göz önündədir. 2020-ci ilin 27 sentyabrında başlanan və 10 noyabrında Zəfərimizlə bitən İkinci Vətən Müharibəsi ermənilərin 30 il işğal altında saxladıqları torpaqlarımızı azadlığa qovuşdurdu. Dövlət başçısının çızdığı qələbəyə aparan yol xəritəsi 44 gün içində uğurla keçildi və böyük Zəfərlə bitdi.

### Suqovuşan böyük potensiala malikdir

Elə Suqovuşanda ilk beynəlxalq yarışın keçirilməsi də həmin prinsipiallığın davamı idi. Bu, bir vaxtlar Suqovuşanda balıqçılıq təsərrüfatı yaratmaqla dünya bazarına qara kürü çıxarıb Azərbaycan torpaqları hesabına milyonlar mənimsəmək fikrində olan ermənilərin yerində oturdulmasının təsdiqi idi. Suqovuşanın balıqçılıq üçün saf sularını öz mənfəətinə çevirən düşmənin arzusunun gözündə qalması idi. "Buyurun, gəlin baxın, görün ki, sizin balıqlara vermək istədiyiniz Suqovuşanı biz insanlara verdik" ismarıcı idi. O sularda balıqlar yox, qayıqlar üzəcək. Yəni Suqovuşan tək sizin düşündüyünüz potensiala deyil, həm də sizin ağlınıza gəlməyən potensiala malikdir.

Beynəlxalq avarçəkmə turnirinin Suqovuşanda keçirilməsi bir çox məqamları özündə ehtiva edir. Bunlardan biri də dünyaya Azərbaycan sərvətlərinin nümayişi idi. O dünya ki, vaxtilə ədalətə çox susdu. Səsini içinə salıb bir xalqın əzəli torpaqlarının yağı tapdağı altında qalmasına üstəlik gözünü də yumdu. Dəfələrlə müraciət edilsinə baxmayaraq bu haqq işindən uzaq durdu, dəstəkləmədi bizi. İndi onların görmək və eşitmək vaxtıdır ki, Azərbaycan hansı gücə malikdir. İkinci tərəfdən Suqovuşanda belə turnirin keçirilməsi onun təsdiqidir ki, Azərbaycan idman ölkəsidir. İndiyədək müxtəlif beynəlxalq çempionatların təşkili üçün əlverişli təbii işlim şəraitinin uyğunluğu, idman infrastrukturunun mövcudluğu kimi, bu idman yarışının keçirilməsi üçün də şəraitin olduğunun göstəricisi idi. Digər bir tərəfdən isə Suqovuşanın dünyaya tanıdılması vaxtının çatması idi. Çünki Suqovuşan gözəl təbiətə, meşəliklərə, bol sulara, heyrətamiz mənzərələrə malik bir ərazidir. Burada turizm üçün böyük potensial var.

Azərbaycan Televiziyasına müsahibələrindən birində dövlət başçısı bu barədə deyib: "İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsi də işğaldan azad edildi və Naftalandan Suqovuşan qəsəbəsinə məsafə o qədər də böyük deyil. Mənim tapşırığımla yeni yolun çəkilişi də təmin edilir və beləliklə, bu zona vahid bir turizm məkanı olacaq. Şiddətli döyüşlər gedən əraziyə gedib baxmaq həm turistlər üçün maraqlı olar, həm də ki, Suqovuşan çox mənzərəli bir yerdir. Naftalana gələn qonaqların - istər Azərbaycan vətəndaşları, istərsə də xarici qonaqlar olsun, - ölkəmizlə tanış olmaları üçün gərək daha geniş imkanlar olsun".

Suqovuşanda postmüharibə dövründə həyata keçirilən işlər də burada beynəlxalq turnirin keçirilməsinə şərait yaratdı. Belə ki, ərazi minalardan təmizləndi, abadlıq işləri aparıldı, düşmənin çıxarkən dağıtdıqları, hissələrini söküb apardıqları elektrik stansiyaları bərpa edildi və "Suqovuşan - 1" və "Suqovuşan - 2" stansiyaları istismara verildi.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu ilin mart ayında Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışında iştirakları işğaldan azad olunan ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qalmış və yeni yarışların keçiriləcəyi ünvana çevrilmişdir.

### Suqovuşanla qürur duyduq

Bu qürurla 2020-ci ilin 3 oktyabrından 2022-ci ilin 6 mayı arasında bir yolçuluğa çıxdıq. Ali Baş Komandanımızın rəhbərliyi ilə strateji baxımdan çox əhəmiyyətli olan yüksəkliklərin ələ keçirilməsi Suqovuşanın, eləcə də digər ərazilərin azad edilməsinə şərait yaratdı. Suqovuşana ermənilərin verdiyi qondarma Madagiz adının da həmin gün ölkə başçısı tərəfindən dəyişdirilib öz tarixi adının bərpa olunması ilə nə qədər qürur duymuşduqsa, beynəlxalq turnirin Suqovuşanda keçirilməsi ilə bir o qədər fəxr etdik. 30 ilə yaxın suları ilə qəm, ələm axıdan, göz yaşını sularına tökən, ayrılıq acısı ilə yanıb yaxılan Suqovuşan azadlığına qovuşanda toy-bayram etdik. Çünki 90-cı illərdə burada böyük itkilərimiz olmuşdu. Onların da, Mübariz İbrahimovun da qisası alındı Suqovuşanın azadlığı ilə.

Avarçəkmə üzrə beynəlxalq tədbirin Suqovuşanda keçirilməsi sanki 30 ildə sükuta qərq olan bu ərazinin insan səsinə olan ehtiyacını da ödədi. Federasiya rəhbərlərinin çıxışları, idmançıların aralarında söhbəti Suqovuşanın lal sükutunu pozdu. 30 il sularının şırıltısından, bir də düşmənin o murdar səsindən başqa səs eşitməyən Suqovuşan bu səslərlə cana gəldi. Sanki yenidən doğuldu. Qonaqlarını qarşıladı, onlara hüsnünün gözəlliklərini sərgilədi. Azadlığını nəğmə edib süzdürdü qulaqlara.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təşkil edilən "Prezident kuboku-2022" turnirində Azərbaycan ilə yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistandan 100-dən artıq avarçəkənin Suqovuşan su anbarında kayak və kanoe növlərində mübarizə aparması bu yerə yeni həyatın qayıtdığını da sərgiləyirdi.

Suqovuşandan səs gəlirdi... O səsdə Zəfər nəğməsi duyulurdu. O səsdən qürur səpələnirdi ətrafa. Qalib ölkənin insanlarının qüruru. Bütün diqqət Suqovuşana yönəlmişdi. Əzəli yurd yerimiz Suqovuşana. Bir qərinəyədək doğma ev-eşiyindən didərgin salınıb "köçkün, qaçqın" adlarını daşımaq məcburiyyətində olanların üzü gülürdü. Çünki hamı Suqovuşandan-onların doğma yurdundan danışırdı.

Qürur qürura qarışmışdı. Bu qüruru biz 2020-ci ilin 10 noyabrdan bəri hər gün yaşayırıq. Bu elə bir qürurdur ki, illər, əsrlər ötəcək, amma o öz dəyərini olduğu kimi saxlayacaqdır. Çünki bu bizim şərəf, namus qürurumuzdur. Suqovuşanın suları qədər, saf və pak qürurumuz.

***Mətanət Məmmədova***

**Ermənistanda kimsə sonsuza qədər bütün xalqı aldada bilməz və bunun bir sonu olacağını özləri də yaxşı bilirlər. Hər zaman pafosla danışanların sonda vədlərinə əməl etmədiklərinin elə ermənilər özləri də dəfələrlə şahidi olublar və indi hərhansı qüvvə özü də bunun fərqindədir. Əbəs yerə deyil ki, Ermənistanda "Müqavimət Hərəkatı" adlanan qurumu təşkil edən guya barışmaz müxalifət son zamanlar bir qədər depressiyaya düşüb və bunun səbəbləri var.**

# Ermənistanda növbəti axmaqlıq









Ola bilsin ki, Köçəryan, Sarkisyan, Vanesyan və daşnakların əhatəsində olanlar hələ də itaətsizlik aksiyalarının nəticəsi ilə bağlı bəzi illüziyaların təsiri altındadırlar. Onlar bəlkə də eyforiyaya qapıla bilərlər, amma reallıq ondan ibarətdir ki, ümidləri artıq tükənməyə başlayır. Heç şübhəsiz ki, onlar mübarizələrini uduzduqlarını artıq başa düşüblər və nəinki bütün erməni xalqını, heç olmasa yarısını belə heç vaxt səfərbər edə bilməyəcəkləri qənaətinə çoxdan gəliblər.

Artıq Ermənistandakı aksiyaları müşahidə edəndə dərhal hiss olunur ki, müxalifət praktiki olaraq bütün resurslarını tükəndirib. Bu isə o deməkdir ki, erməni xalqı qanlı-qadalı, fəlakətli keçmişə qayıtmaq və ya qeyri-müəyyən gələcəyə istiqamətlənmək istəmir. Görünən odur ki, bu xalq yeni qanlı müharibə istəmir. Bunu istəsələr belə güclərinin olmadığını, müharibəyə qatılmaq imkanlarının olmadığını, resurslarını tamamilə itirdiklərini bilirlər. Bilirlər ki, səs-küy salmaları, qarşıdurmalar yaratmaları onların yenidən itgiləri ilə nəticələnəcək və ən böyük reallıq da elə budur. Sıravi erməni xalqı balalarını kimlərinsə məkrli niyyətlərinə qurban vermək istəmir, sadəcə normal yaşamaq fikrindədir, təbii ki, buna öz aralarından çıxan avantüristlər imkan versələr.

İndi Ermənistanda ortaya atılanlar aksiya keçirməklə nəyə isə ümid edə bilməzlər və kütlə deyilən bir qüvvədən söhbət belə gedə bilməz. Məhdud sayda, özü də eyni adamları meydana toplamaq nə isə demək deyil və özləri də bunu başa düşdüklərinə görə sıralarında ümidsizlik və qıcıqlanma çox güclü şəkildə nəzərə çarpır. Buna baxmayaraq öz niyyətlərindən əl çəkmək istəmirlər və sağlam məntiqə uyğun olmayan gülünc hərəkətlər etməkdə davam edilər. Elə məhz 12 may tarixində "Müqavimət Hərəkatı"nın bir qrup nümayəndəsinin Aİ-nin Ermənistandakı nümayəndəliyinin binası qarşısında etiraz aksiyası təşkil etməsi belə gülünc hərəkətlərdəndir. Əllərində etirazçılara qarşı zorakılıq edən polis məmurlarının fotoşəkilləri gəzdirənlərin hərəkətlərinin nəyə hesablandığını özləri də bilmirlər. Aİ nümayəndə heyətinin polisin bu günlərdə güc tətbiq etməsinə münasibəti nəyi dəyişə bilər və bunların Aİ-nin Ermənistandakı nümayəndəliyindən istəyi nədir axı? İndi Ermənistan bir ölkə olaraq varlığı belə sual altında olduğu bir məqamda bu hərəkətlərin mənası nədir?

Əlbəttə ki, polisin ölkə hakimiyyəti tərəfindən icazə verilməyən aksiyaları, ümumiyyətlə tədbirləri dağıtması ilə bağlı Aİ ofisinə iddialar irəli sürmək olduqca böyük bir axmaqlıqdır. Onlar bu barədə narazılıqlarını hökumətə, baş prokurora, polis rəhbərliyinə təqdim etsəydilər, hardasa başa düşmək olardı. Bəs Aİ-nin bu məsələyə nə aidiyyatı var? Aksiya iştirakçıları bununla nəyə ümid edirlər axı və özləri öz axmaqlıqlarının fərqindədirlərmi?

İndi erməni xalqının hissləri üzərində qurulan bu kinli oyunlar ümumilikdə xalqın özünə zərərlidir. Hazırda Ermənistanın qarşısına qoyulan şərtlər var və bu şərtləri elə Aİ özü ilk növbədə təsdiqləyib. Ermənistan tərəfi qarşısındakı şərtləri yerinə yetirmək əvəzinə, Aİ-nin Ermənistandakı nümayəndəliyinin qarşısında aksiya keçirilirsə, bunun adı həqiqətən də axmaqlıqdır. Aİ indi Ermənistandan yalnız böynuna götürdüyü şərtlərə əməl etməsini gözləyir. Bu qurum üçün maraqlı olan budur və belə olan halda aksiya iştirakçıların əməlləri yalnız gülünc görsənə bilər, hansıki bunu qəbul edən ermənilər çoxdur.

Digər tərəfdən, axı indi Ermənistanın bu çətin vəziyyətdən, bu çətin durumdan, hansıki bu ölkə özü-özünü düçar edib, xilas yolu məhz boynuna götürdüyü öhdəlikləri, şərtləri yerinə yetirməkdən ibarətdir. Yəni, bunu onlar hələ də anlamırlarmı? Anlamırlarmı ki, dalana diriniblər və bu ölkə birdəfəlik tarixin arxivinə yazıla bilər? İndi ikinci bir Ermənistan dövləti arzulayanlar bircəciyini belə əldən vermək üzrə olduqlarının fərqində deyillərmi? Görmürlərmi ki, bütün dünya bu ölkənin qanunsuz hərəkətlərini etiraf etdi və bu ölkənin qarşısında qoyulan şərtlər əbəs yerə təsdiqlənmədi? Bunu dərk etmək, təxirə salınmadan şərtlərə əməl etmək əvəzinə ortaya düşüb şou göstərmək birmənalı şəkildə axmaqlıq sayılır.

Düz 30 ilə yaxın müddət ərzində Ermənistan hökuməti, bu ölkə hakimiyyətləri erməni xalqını aldatdı. Bu illər ərzində ikinci Ermənistan dövləti vəd etdilər erməni xalqına və sonda bu xalqın evladlarını özgə torpaqlarına döyüşə göndərməklə qırğına verdilər. Sıravi ermənilər öz evladlarını səbəbsiz, mənasız yerə itirdilər. Onlar vətən uğrunda döyüşüb canlarını qurban verən, müqəddəs şəhid adını qazanan, ən uca məqama yüksələn Azərbaycan əsgərindən fərqli olaraq, sadəcə kimlərinsə oyununun qurbanı oldular və mənasız yerə öldülər. Hələ də bir çox erməni ailəsi evladının qayıdacağını gözləyir, bir çoxları da onların ölümünü qəbul edə bilmirlər. Bunu qəbul etmək mümkün də deyil və bütün bunların fonunda indi yenə də bu xalqı oyuna sürükləmək axmaqlıq deyilmi?

Qeyd etdiyimiz kimi, erməni xalqı üçün indi normal yaşamaq birinci dərəcəli sual, birinci dərəcəli məsələdir. Onlar üçün nə fərqi var, hakimiyyətdə Koçaryan, yaxud Sarkisyan olsun, Paşinyan olsun ya da bir başqası? Guya onların hansınınsa hakimiyyətə gəlməsi, yaxud da hansısa formada hakimiyyət dəyişikliyi nəyə təsir edə bilər? İndi artıq ötən əsrin 90-cı illəri deyil ki, torpaqları yenidən işğal edə biləsələr. Artıq Azərbaycan ötən əsrin sonlarındakı ölkə deyil və erməni hiyləsi də, məkri də, işğalçılıq niyyətləri də bizə bəllidir. Üstəlik, 30 il ərzində qurulan istehkamı Azərbaycan Ordusu tərəfindən dağıdılan, darmadağın edilən Ermənistan bu qədər itgilərindən sonra, tamamilə rəzil duruma düşdüyü halda Azərbaycanın qarşısına bir də çıxa bilərmi? Azərbaycan Ordusunun cəmi 44 gün ərzində darmadağın etdiyi Ermənistan silahlı qüvvələri indi hansı resursa və nəyə ümid edə bilər? Əlbəttə ki, heç nəyə. Belə olan halda, bu ölkədə aksiya keçirmək, hansısa tələblərlə çıxış etmək yalnız axmaqlıqdır.

Bu axmaqlıqların əvəzinə Ermənistan tədbirli şəkildə sülh müqailəsinin imzalanmasını tezləşdirə bilərdi və bununla da ən azından inkişaf etməsi üçün imkanlar qazanardı. Əvvəla ona görə ki, bu ölkə birdəfəlik işğalçılıq siyasətinə son qoyub inkişaf haqqında düşünərdi. Digər tərəfdən də Ermənistan iqtisadi əlaqələr qurmasa, bunun üçün nəqliyyat dəhlizindən istifadə etməsə heç nəyə ümid edə bilməz. Koçaryanın, Sarkisyanın timsalında heç bir erməninin əlində sehrli çubuq yoxdur ki, onunla bir anda Ermənistanı bu böhranlı vəziyyətdən, bu acınacaqlı durumdan çıxara bilə. Bir sözlə, indiki durimda Ermənistanda kimlərinsə aksiyaya bel bağlaması da, ümumiyyətlə, aksiya keçirməsi də yalnız axmaqlıqdır. Belə axmaqlıqların bu ölkədə dəfələrlə şahidi olmuşuq və görünür, bu da növbəti axmaqlıqdır.

***İnam Hacıyev***

# Rusiya xalq artisti:
# Yesenini Bakıda belə aldatmışdılar...

**Sergey Nikonenko: Hərbçilər işə vicdanla yanaşaraq dekabrın uzun, qaranlıq gecəsində onu maşınla Bakının çöllərində gəzdirib... Mərdəkana gətirirlər**



Rusiya Federasiyasının xalq artisti Sergey Nikonenkonun Bakı ilə çoxillik dostluq əlaqələri var və onun birləşdirici halqası şair Sergey Yeseninin yaradıcılığıdır. Xalq rəssamı dəfələrlə Mərdəkanda, Yeseninin ev-muzeyində olmuş, şairin həyat və yaradıcılığı ilə bağlı nadir eksponatlar təqdim etmişdir. "Moskva-Bakı" portalına müsahibəsində Sergey Petroviç bu yaxınlarda tapılan və Yeseninlə əlaqəli olan nadir artefaktdan danışıb. Bundan əlavə, rəssam Bakıda kiminlə Yeseninin şeirləri əsasında poetik döyüşə getdiyini, şairin həyatının hansı dövründən rejissor kimi kino çəkməyə hazır olduğunu bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycanda Yeseninin yaradıcılığına böyük sevgi var. Siz də onun yaradıcılığının pərəstişkarısınız və dəfələrlə Bakı tamaşaçılarına şairin həyat və yaradıcılığından bəhs edən ədəbi-musiqili tamaşa təqdim etmisiniz...***

- Mən həmişə Bakıya yaradıcılıq gecəsinə dəvət alanda məmnuniyyətlə gəlirdim. Yeseninin yaradıcılıq gecəsini mən və "Relikt" triosu təşkil etdik. Amma ən çox Bakıya tamaşalarla gəlirdim. Hələ Aleksandr Abdulov sağ olanda gəlmişdim... Biz gözəl günəşli şəhərə, doğma Bakımıza çoxlu tamaşalar gətirdik.

***- Bu il Bakıya səfər etməyi düşünürsünüzmü?***

- Bu suala cavab vermək çətin olsa da. Hələ belə bir səfər gözlənilmir. Bunu Allahın ixtiyarına buraxmaq lazımdır (gülür).

***- Rus ədəbiyyatında gümüş dövrün çox gözəl şairləri var. Bu Blok, Axmatova və Pasternakdır. Sergey Yeseninin işinə və taleyinə niyə bu qədər tərəfdarsınız?***

- Yeseninin əzablı həyatı olub, dövr də çox çətin olub. Həm qıtlıq, həm də qanlı dövr idi. Yesenin 3 müharibədən sağ çıxdı. Yapon müharibəsində onun uşaqlığı keçdi, sonra Birinci Dünya Müharibəsi və Vətəndaş Müharibəsi oldu. Vətəndaş müharibəsi ən pisi idi. O, 3 inqilabdan sağ çıxdı. 1905-ci il birinci rus inqilabı, fevral inqilabı və oktyabr inqilabı. Və bütün bunlar 30 il çəkdi. Üstəlik, onun 4 arvadı var idi, bu da asan deyil (gülür). Ən diqqətəlayiq olanı Yeseninin 1-ci arvadı idi. Onunla çox yumşaq davranırdı, həmişə nəzakətli və diqqətli idi. Bu Anna Romanovna İzryadnova idi. Onun yaşadığı mənzil indi mənim Yesenin muzeyimdir. Qalan arvadlarla münasibətdə şairin həmişə bir növ "şekspir" ehtirasları olub. Onun şeirlərini niyə bəyənirsiniz? Yesenin gənc və cılğın idi. Amma şeir yazanda birdən elə biliyə nail oldu, bəzən elə kateqoriyalarda fikirləşirdi ki, təəccüblənirsən. Deyə bilərik ki, bu istedad onun Allahdan olub.

***- Yeseninin yaradıcılığının Bakı səhnəsi çoxlarına tanışdır. Şair bir neçə dəfə Bakıda olmuş və həmişə bu şəhərə poetik sətirlər həsr etmişdir. Sizcə, şair Bakını niyə sevirdi?***

- Əvvəla, Yesenin şərq poeziyasını çox sevirdi və lirikanı Rudaki, Nəsimi, Sədi kimi şərq şairlərindən və təbii ki, şair Nizami Gəncəvidən öyrəndiyini gizlətmirdi. Yesenin onların əsərlərini tərcümədə oxuyurdu. İkincisi, Bakıda çox yaxşı yaşayırdı. Özü də etiraf edirdi ki, Bakıda çox məhsuldar, rahat və asanlıqla işləmişdir. O, bu bölgəni poetik və mənəvi məkan adlandırıb. "Suyun üzərindəki neft fars yorğanı kimidir..." - bunu Bakıda görüb yazıb. O, şərq poeziyasının aşiqi olduğu üçün çox istəyirdi ki, İrana səfər etsin. Və bu xahişi Pyotr Çaqinə ünvanladı. Çaqin "Bakinskiy Raboçiy" qəzetinin redaktoru idi və birbaşa Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sədri Sergey Kirovla əlaqə saxladı. Birlikdə onun üçün Bakıdan "İrana" səyahət təşkil etdilər. Axşam onu hərbi maşına mindirib İrandakı bir iqamətgaha apara biləcəklərini söylədilər. Baxmayaraq ki, əvvəlcə Çaqin Yesenini fikrindən daşındırmağa çalışıb, misal kimi orada öldürülən Qriboyedovun taleyini göstərib. Yesenin Qriboedovun taleyini təkrarlaya bilərdi, əgər o, həqiqətən İrana getsəydi. Amma Yesenin qorxaqlardan deyildi, istəyində israrlı idi və hamıya deyirdi: "Mənə silah verin, gedim". Hərbçilər işə vicdanla yanaşaraq dekabrın uzun, qaranlıq gecəsində onu maşınla Bakının çöllərində gəzdirib... Mərdəkana gətirirlər. Yesenin neft maqnatı Muxtarovun sarayında yaşayırdı. Və bir həftə sonra yalanın üstü açılmasın deyə onu oradan çıxardılar. Hətta sonralar bir tərcümeyi-halında bütün Avropanı gəzdiyini, Amerikada və İranda olduğunu yazmışdı. Əgər Avropada və Amerikada həqiqətən də İsadora ilə çox səyahət etmişdisə də, o, əlbəttə ki, İranda olmamışdı (gülür). Kirov və Çaqin üçün isə bu, bir növ cazibədar və xilaskar bir aldatma idi. Amma Yesenin sonra bütün dostlarına deyirdi ki, İranda çiçəklər fərqlidir və hava sevgi ilə doludur. Əslində özü də bilmədən, bütün bunları Mərdəkan haqqında demiş olurdu (gülür).





***- Siz vaxtilə Yeseninə aid 17 eksponatı Yeseninin Mərdəkanda olan ev-muzeyinə köçürtmüsünüz. Şairin nadir əşyaları ilə bağlı başqa yeni tapıntılar tapa bildinizmi?***




- Yeseninin nadir avtoqrafına rast gəldim. Onu hətta sitat kimi gətirmək olar. Yeseninin müasirləri olan şairlərin qafiyələrdən istifadə etmələri məni təəccübləndirdi. Elə kitabçalar, kifayət qədər nazik kitablar var idi ki, qafiyələr sütun şəklində yazılmışdır. Deməli olar ki, hər sütunun davamı var, lakin fərqli əl yazısı var. Müxtəlif şairlər bu kitabçalara öz qafiyələrini əlavə etmişlər. Yeseninin əl yazısı da oradadır. Mən həmişə onun dəstxəttini tanıyıram, o, bir hərfi ayrıca yazırdı. Və onun avtoqrafı var. Məndə Yeseninin az qala naməlum sayılan avtoqrafı var. Moskvadakı Yesenin muzeyimdə saxlanılır.

***- Bakıya gələrkən tamaşaçıdan hiss edirsiniz ki, Azərbaycanda insanlar şairlərin, yazıçıların, rəssamların təmsil etdiyi rus mədəniyyətini sevirlər?***

- Əlbəttə. Hətta misal olaraq sizə bir hadisə də danışacam. Məni azərbaycanlı tanışlarımdan biri, "Bakılı oğlanlar" KVN komandasının kapitanı Anar Məmmədxanov təəccübləndirdi. Təəssüf ki, o, erkən dünyasını dəyişdi. Bakıya səfərlərimin birində məni müsabiqəyə dəvət etdi - kim Yeseninin şeirlərini daha çox əzbər oxuyacaq. Mənim yaradıcılıq gecəmdə Yeseninin cəmi 33 şeiri var. Anar isə Yeseninin poeziyasını dərindən və həcmli bilməsi ilə məni heyran etdi.

***- Bu poetik döyüşdə kim qalib gəldi?***

- Həmin axşam bizi dinləyən komanda qalib gəldi. Başa düşdük ki, hamı qazandı - oxuyan da, dinləyən də. Və bu, mənim fikrimcə, ədalətli idi (gülür).

***- Yesenin haqqında həm sənədli, həm də bədii filmlər çəkilib. Siz rejissor və ssenarist kimi şairin həyatından bəhs edən, Yeseninin yaradıcılığının Bakı mərhələsinin əks oluna biləcəyi bir film çəkmək imkanını düşünmüsünüzmü?***

- Bu, yaxşı fikirdir və məncə, Yeseninin yaradıcılığının və həyatının Bakı dövrünü çəkmək daha yaxşıdır. Belə bir filmin çəkilməsi əla olardı, çünki Yesenin yalnız Bakıda həqiqətən xoşbəxt idi. Amma bakılılar onun haqqında film çəkmək fikrini dəstəkləməlidirlər. Mən həmmüəllif olmağa və rejissor kimi bu layihənin həyata keçirilməsinə kömək etməyə hazıram. Maraqlı bir film olardı. Blumkin və onun gözəl həyat yoldaşı ilə bir epizod nəyəsə dəyər. Blumkin Bakıya gəlir və qəfildən məlum olur ki, Yeseninin həyat yoldaşı ilə münasibəti var. Ehtiraslar yüksəkdir, hər ikisi gəncdir, Yeseninin 29, Blumkinin 25 yaşı var. Yesenin tapança alıb Bakını tərk edir, Blumkinin arxasınca düşür. Gözəl və maraqlı film ola bilər!

***Müsahibə- Tatyana Novikova***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
18 may 2022-ci il

# Messi gələn il Devid Bekhemin klubunda oynayacaq



PSJ-nin hücumçusu Lionel Messi 2023-cü ilin yayında MLS-in ”İnter Mayami” klubuna keçəcək. Bu barədə ”Diario AS” məlumat yayıb. Bildirilib ki, 34 yaşlı futbolçu həm də klubun səhmdarlarından birinə çevriləcək və klubun səhmlərinin 35 faizini alacaq. Hücumçu gələn mövsümü isə Paris klubunda keçirəcək.

Qeyd edək ki, Messi 2021-ci ilin yayında PSJ-yə keçib. Bu mövsüm argentinalı futbolçu bütün yarışlarda 33 matçda 11 qol vurub və 13 qolun ötürməsini verib. Tərəflər arasında müqavilənin müddəti gələn mövsümün sonunda başa çatır. Paris klubuna qədər Messi təkcə ”Barselona”da oynayıb. Xatırladaq ki, ”İnter Mayami”nin hazırkı sahibi İngiltərə millisinin sabiq üzvü Devid Bekhemdir.

# Valideynlərin rus bölməsinə üstünlük verməsi hansı problemlərə səbəb olur?

**“Təəssüf ki, son illərdə övladının rus bölməsi üzrə təhsil almasını istəyənlər çoxalıb. Burada bəzi səbəblər əsas götürülür”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert İlqar Orucov bildirib.**







EKSPERT DANIŞDI

Onun sözlərinə görə, təəssüf edirəm ki, rus bölməsinə müraciət edən ailələrdə heç kim rus dilini bilmir, ailədə ümumiyyətlə bu dildə danışanlar yoxdur: ”Eyni zamanda uşağın özünün rus dili biliyi olduqca azdır. Əlbəttə ki, onlar məktəblərə müraciət etdikdə müəyyən problemlərlə də üzləşirlər. Son illərdə Təhsil Nazirliyi əslində düzgün yanaşmanı ortaya qoyub. Rus dili bölməsinə qəbul zamanı müsahibə aparılır. Burada şagirdin rus dili bilikləri araşdırılır. Bundan sonra isə artıq qərar qəbul edilir ki, şagird rus bölməsinə qəbul olunur ya yox. Bir çox hallarda valideynlər belə bir sınağın keçirilməsindən xəbərdar olurlar. Buna görə də uşaqlarını bir neçə aylıq repititor yanına qoyurlar. Burada uşaq rus bölməsinə qəbul üçün hazırlanır. Daha sonra isə uşaq rus bölməsinə qəbul olunur. Lakin ailədə rus dilini bilən heç kim olmadığı üçün bir müddət üzrə uşaqların ev tapşırıqlarını yerinə yetirməkdə müəyyən problemlər yaranır. Xüsusilə də ibtidai siniflərdə bu problemlər daha ciddi xarakter daşıyır. Uşaq çətinlik çəkdikdə, valideyninin köməyindən də avtomatik olaraq yararlana bilmir. Eyni zamanda biz istəsək də, istəməsək də uşağın ilk sığındığı onun ailəsidir. Uşaq öz ailəsindən kömək ala bilmir, o dəstəyi görmür. Əslində burada hardasa bir çat da yaranır. Buna görə də valideyner bölmə ilə əlaqədar qərar verdikdə olduqca diqqətli olmalıdırlar.

Valideyn məktəbdə bölmə ilə bağlı qərar verir. Təbii ki, bu seçimdə sərbəstdirlər. Amma seçimi elə etməlidirlər ki, gələcəkdə uşağın inkişafında problemlər yaranmasın. Çünki düşünün, uşağın ailəsində heç kim rus dilini bilmirsə, bu zaman tək tapşırıqların həll edilməsində deyil, uşağın valideynlərinə güvəni ilə də bağlı ciddi problemlər ortaya çıxır. Uşaq bu zaman öz məktəb yoldaşlarından da geri qalır. Bu zaman isə utanır, çəkinir. Özünü bir müddət sonra isə hər kəsdən təcrid etməyə başlayır. Bu baxımdan dil məsələsinə prestij kimi baxmamalıyıq. Uşağın gələcəyini, onun inkişafını düşünmək lazımdır”.

*Səbinə Hüseynli*

## “Formula 1” üzrə Azərbaycan Qran-prisinin trasında dəyişiklik edilib

**Gələn ay Bakıda keçiriləcək ”Formula 1” üzrə Azərbaycan Qran-prisinin pit-leynində dəyişiklik edilib. SİA xəbər verir ki, bu barədə Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkətinin icraçı direktoru Arif Rəhimov açıqlamasında bildirib. BŞH rəsmisi pit-leynə daxil olmaq üçün zonanı bir qədər dəyişdirdiklərini söyləyib: ”Trasda heç bir dəyişiklik yoxdur. Lakin Beynəlxalq Avtomobil Federasiyası bizdən xahiş etdi ki, onu daha təhlükəsiz etməkdən ötrü pit-leynin girişində dəyişiklik aparaq. Görək, bu dəyişiklik hansı nəticələrə gətirib çıxaracaq. Düşünmürəm ki, pilotlar pit-leynə səhv yol verəcək şəxslərdəndir. Dəyişiklik indiki və əvvəlki hissələrdə edilib. Yəni, formaya bir qədər düzəliş edilib”.**

**Qeyd edək ki, cari mövsüm ”Formula 1” üzrə Azərbaycan Qran-prisi 10 - 12 iyunda keçiriləcək. 2016-cı ildə Azərbaycandakı ilk ”Formula 1” yarışının qalibi olan Niko Rosberq (”Mercedes) Bakı trasındakı pit-leyn girişlərini ən qorxulu zonalardan hesab edib. ”Formula 1”in sabiq direktoru Maykl Masi Rosberqin fikri ilə razılaşmayıb.**



# Ümrə ziyarətinə kimlər gedə bilər?

**“Ümrə ziyarəti kiçik həcc ziyarətidir. Ümrə ziyarətinə gedən insan ilk olaraq sağlamlığına diqqət yetirməlidir”. Bu fikirləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev bildirib.**

Onun sözlərinə görə, Ümrə ziyarətinə gedən insanın maddi durumu yaxşı olmalıdır: ”Yəni ailəsinin ehtiyacları varsa Ümrə ziyarətinə getmək şərt deyil. Ümrə ziyarəti 1 həftə çəkir. Bu ziyarətdə yaş həddi yoxdur. Uşaqlar da valideynləri ilə bərabər bu ziyarətə qatıla bilər. Ölkəmizdə Ümrə ziyarətinə görə turlar təşkil olunur. Təbii ki, Ümrə ziyarətinə gedən insan mütləq şəkildə namaz qılmağı bilməlidir ya da öyrənib getməlidir. Ümrə ziyarətində niyyət birinci şərtdir. Niyyətdən sonra 2 hissə ağ parça ilə özünü bükür. Kəbə evinin təvafına yollanır. 7 dəfə təvaf etdikdən sonra Kəbə evinin yanındakı İmrahim məqamında 2 rükət təvaf namazı qılır. Bu vacibdir. Bundan sonra isə dırnağından və ya saçından bir parça kəsir. Bununla da Ümrə ziyarəti tamamlanır. Qalan vaxta isə istənilən qədər Kəbə evini ziyarət edə bilər. Ümrəçi 3 ya 4 gün Məkkədə qalır, sonra isə Mədinəyə, Peyğəmbər ziyarətinə gedir. Ümumi Ümrə ziyarəti gediş-gəlişlə bərabər 1 həftə olur. Turlar insanları qruplarla Ümrə ziyarətinə aparırlar”.

*Abutel İlhamqızı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220